**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN DAVAMLI İNKİŞAFININ PERSPEKTİVLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Piriyev Xaliq Xeyrəddin**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**_________________________ imza**
**"____" _______________ 20__-ci il**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN DAVAMLI İNKİŞAFININ PERSPEKTİVLƏRİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060407-Menecment

**İxtisaslaşma:** Menecment (sahələr üzrə)

**Qrup:** 238

**Magistrant:**
**Piriyev Xaliq Xeyrrədin oğlu**
**_______________ imza**

**Elmi rəhbər:**
**i.e.n, dos. Ələsgərova Aygün Ağasəlim qızı**
**________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**______________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_______________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Piriyev Xaliq Xeyrəddin oğlu and içirəm ki, "İşğaldan azad olunmuş ərazilərin davamlı inkişafının perspektivləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN DAVAMLI İNKİŞAFININ PERSPEKTİVLƏRİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Ümumiyyətlə hər bir ərazidə dayanıqlı inkişaf təmin olunarkən o ərazidə zəruri olan iqtisadi amillər formalaşmalıdır. Azad edilmiş ərazilkərin ən böyük potensialı, düzgün təşkil olunarsa, turizm ilə bağlı olacaqdır.Dünya təcrübəsindən istifadə olunaraq bölgədə birinci dəfə olaraq müasir standartlara cavab verən eksperimental layihələrin icra olunması reallaşdırılacaq. "Yaşıl enerji" zonası və "Ağıllı kənd" pilot layihəsi bu layihələr sırasında öndə dayanır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş bölgələrdə dayanıqlı inkişafın təmin olunması üçün bütün perspektivlərin araşdırılmasıdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı sistemli yanaşma, statistik qruplaşdırma, normativ yanaşma, bundan başqa, deduksiya, induksiya, analiz və axtarış metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasının formalaşmasını azad edilmiş ərazilərdəki perspektivlər haqqında görkəmli sosioloq alimlərin əsərləri, tədqiatçıların məcmu əsərləri, son zamanların yerli və xarici ədəbiyyatlarındakı məlumatları, dövlətin müvafiq qanunverici və normativ-hüquqi aktları və ən asas da internet resursları təşkil edəcəkdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın məhdudiyyəti kimi onu göstərə bilərik ki, mövzu ilə bağlı ədəbiyyatların azlıq təşkil etməsi, yəni ki, Qarabağ və ətraf rayonların işğalçılıq siyasəti olaraq 30 il ərzində tam tədric olunmuş halda saxlanılması əsas məhtudiyyətlərdəndir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərin qurulmasında bu tip hadisələrin baş verdiyi ölkələr göstərilmiş və buradakı yenidənqurma proseslərinin azad edilmiş ərazilərə tətbiqi və digər göstəricilərdən istifadə edərək dayanıqlı inkişafa təsir amilləri qiymətləndirilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Nəticə olaraq onu qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın inkişaf etməsi üçün burada vergi və gömrük rüsumları azaldılmalı, xarici və yerli investorlar üçün stimulverici amillər olmalıdır. İnkişaf etmiş ölkələrdə əsasən vergi və digər rüsumların çox olması baxımından Qarabağ zonasında məharətlə istifadə etmək olar. Yəni ki, istənilən bir şirkət daha çox gəlir əldə edib daha az xərci çıxacağı yerə sərmayə yatırmaqda maraqlıdır. Bunlarla, yanaşı müasir dünyanın tələblərinə cavab verən turizm sənayesinin bir çox növləri üçün azad edilmiş ərazilərdə böyük perspektiv vardır. Dissertasiya işinin araşdırılmasından ortaya çıxan nəticələrdən müxtəlif elmi işlərdə, araşdırmalarda istifadə oluna bilər.**



***Açar sözlər: Davamlı inkişaf, İqtisadiyyat, Perspektiv, Ehtiyat, Potensial imkanlar***

# PERSPECTIVES OF SUSTAINABLE DEVELOPMENT OF OCCUPYED AREAS


## SUMMARY

**The actuality of the subject: In general, while ensuring sustainable development in each area, the necessary economic factors must be formed in that area. The greatest potential of the liberated area, if properly organized, will be related to tourism. For the first time in the region, experimental projects meeting modern standards will be implemented using world experience. The Green Energy Zone and the Smart Village pilot project are among the leading projects.**

**Purpose and tasks of the research: The main purpose of the study is to explore all the prospects for sustainable development in the liberated areas.**

**Used research methods: Systematic approach, statistical grouping, normative approach, as well as deduction, induction, analysis and search methods were used during the research.**

**The information base of the research: The formation of the research database will be based on the works of prominent sociologists on the prospects of the liberated territories, a collection of works by researchers, recent information in local and foreign literature, relevant state legislative and regulatory acts and, most importantly, Internet resources.**

**Restrictions of research: As a limitation of the research, we can point out that one of the main limitations is the lack of literature on the subject, ie the fact that Karabakh and the surrounding regions have been kept in a state of complete graduation for 30 years as a policy of occupation.**

**The novelty and practical results of investigation: The countries where such events took place were indicated in the construction of the liberated territories, and the application of the reconstruction processes to the liberated territories and the factors influencing sustainable development were assessed using other indicators.**

**Scientific-practical significance of results: As a result, it should be noted that in order to develop the economy in the liberated territories, taxes and customs duties should be reduced, and there should be incentives for foreign and local investors. It can be used skillfully in the Karabakh zone, mainly in terms of high taxes and other duties in developed countries. That is, any company is interested in investing where it will earn more and spend less. At the same time, there are great prospects in the liberated areas for many types of tourism industry that meet the requirements of the modern world. The results of the research of the dissertation can be used in various scientific works and studies.**



***Keywords: Sustainable Development, Economy, Perspective, Reserve, Potential Opportunities.***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BMT** | Beynəlxalq Millətlər Təşkilatı |
| **DVX** | Dövlət Vergi Xidməti |
| **ETSN** | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **SES** | Su Elektrik Stansiyası |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

MÜNDƏRİCAT

**GİRİŞ................................................................................................................ 8**

**I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ İNKİŞAFININ TƏMİN OLUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI.................................................................................................... 12**

1.1 İşğaldan azad olunmuş ərazilərin xarakteristikası ........................................... **12**

1.2. Azad olunmuş ərazilərlə bağlı hüquqi təminat ................................................ **28**

**II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TƏBİİ EHTİYYATLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ.............................. 32**

2.1. Azad olunmuş ərazilərin bərpa və yenidən qurma işlərinin,eləcə də onların ölkə iqtisadiyyatına reinteqrasiya olmasını gücləndirmək yolunda infrastruktur layihələrin rolu .................................................................................................... **32**

2.2. Ölkə iqtisadiyyatının gücləndirilməsi və dayanıqlığının möhkəmləndirilməsi yolunda azad olunmuş ərazilərdə dağ-mədən və emal sənayesi, kənd təssərrüfatı və turizmin potensialının qiymətləndirilməsi. ......................................................... **47**

**III FƏSİL. AZAD OLUNMUŞ AZƏRBAYCAN TORPAQLARINDA DAVAMLI İNKİŞAF PERSPEKTİVLƏRİ................................................... 55**

3.1. Yeni innovasiyalı layihələrin- “Ağıllı şəhər”, ”Ağıllı kənd”, “Yaşıl eneryi zonası” və digərlərinin işlənib hazırlanması və effektiv şəkildə reallaşdırılması... **55**

3.2. Yeni investisiya mənbələrinin cəlb edilməsinin stimullaşdırılması ................ **62**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR........................................................................ 67**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI......................................... 70**

Cədvəllərin siyahısı ............................................................................................ **73**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Ümumiyyətlə hər bir ərazidə dayanıqlı inkişaf təmin olunarkən o ərazidə zəruri olan iqtisadi amillər formalaşmalıdır. Qarabağ regionunun öz əhalisini, öz infrastrukturunu təmin etmək üçün yetərincə iqtisadi potensialı vardır. Bu potensialı aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

- Turizm sənayesinin inkişaf etdirilməsi;
- Təbii ehtiyatların istehaslının təşkil olunması;
- Kənd təsərrüfatının inkişafı;
- Tikinti və meşə sənayesinin inkişaf etdirilməsi;
- Yeni iş yerlərinin açılması və s.

Azad edilmiş ərazilkərin ən böyük potensialı, düzgün təşkil olunarsa, turizm ilə bağlı olacaqdır. Bu ərazilərdə turizmin bir çox növü üçün o cümlədən də tibb turizmi üçün böyük potensial vardır. Bu ərazilərin turizm gəlirləri ölkəmizin bu vaxta qədər qazandığı turizm qazanclarından daha çox ola bilər, burada söhbət ən azı 1,5-2 mlrd. dollardan gedir.

Qarabağ regionun iqtisadi potensialı müəyyən olunarkən, onu da vurğulamaq lazımdır ki, belə münbit torpaqları olan yerlərdə kənd təsərrüfatının hər iki növünün inkişafı üçün əlverişli mühit vardır. Gələcəkdə icra olunacaq işlərin sürətinin maksimum artırılması üçün, şəraitin daha da yaxşılaşdırılması üçün dünya standartlarına cavab verən bir neçə aeroportun qurulması, başlanğıc icra olunmalı layihələrdən biridir. Hər bir inzibati rayonun ayrı-ayrılıqda coğrafi mövqeyinə görə işlərin görülməsi nəzərə alınmışdır. Ən birinci layihələrin icra edilməsi üçün təyin edilən investisiyalara uyğun olaraq bir çox beynəlxalq şirkətlər ilə yeni-yeni müqavilələrin bağlanması bu regiona və burada görüləcək işlərin böyüklüyündən və vacib olmasında irəli gəlir.

Dünya təcrübəsindən istifadə olunaraq bölgədə birinci dəfə olaraq müasir standartlara cavab verən eksperimental layihələrin icra olunması reallaşdırılacaq. “Yaşıl enerji” zonası və “Ağıllı kənd” pilot layihəsi bu layihələr sırasında öndə dayanı.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dissertasiya işində tədqiq edilən, araşdırılan azad edilmiş torpaqların dayanıqlı inkişafı ilə bağlı mövzu hal-hazırki vaxtda Azərbaycan və bu ərazilərə investisiya yatırımı etmək istəyən xarici investorlar üçün ən aktual və əhəmiyyətli məsələ olduğu üçün, aparılan araşdırmalar onu göstərir ki, qeyd olunan mövzu əsasən yerli alimlər, sosioloqlar , iqtisadçılar və s. tərəfindən demək olar ki, davamlı olaraq tədqiq olunur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin məqsədi ondan ibarətdir ki, azad edilmiş torpaqlarda dayanıqlı inkişafın müyyən olunması və bu prosesdə dövlətin rolu üzrə, dəstəyi üzrə xarici təcrübədən və yeni metodlardan istifadə olunaraq onların həll edilməsinə dair təkliflərin və tövsiyələrin hazırlanması təşkil edilsin. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı inkişafın perspektivləri mövzusunda dissertasiya işinin önündə müvafiq vəzifələrin icra olunması durur ki, bu vəzifələri aşağıda verilən kimi qruplaşdırmaq olar:

- Təbii ehtiyyatlardan istifadə olunmanın səmərəliliyində dövlətin rolunun ön plana dayanması;
- Resurslardan səmərəli istifadə edilməsi və dayanıqlı inkişafın elementlərinin müyyən olunması;
- Turizm sənayesinin hər bir növünün ayrı-ayrılıqda araşdırılması;
- Təbii resursların səmərəli istifadə olunması üzrə planlaşdırma işlərinin aparılması, bərpa-quruculuq işlərinin edilməsi və islahatının aparılması;
- Təbii resurslardan istismar üsulunun təkmilləşdirilməsi ilə səmərəliliyin yüksəldilməsi üsulları və bu ərazilərin bərpa olunmasının iqtisadi aspektlərinin müəyyən olunması;
- Ekoloji baxış və bu ərazilərin eko sisteminin təhlil olunması;
- İnfrastruktur sahələrində köhnənin bərpası və yeninin yaradılması;
- Təbii resursların emal olunmasının səmərəliliyinin icra edilməsində dövlətin önündə duran əsas vəzifələrin seçilməsi;

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin obyekti işğaldan qurtulmuş regionların fasiləsiz dayanıqlı inkişafı, predmetini isə bu yerlərin dayanıqlı inkişaf

ilə birbaşa və ya dolayı bağlı olan nəzəri, metodiki və praktiki məsələlərdən ibarətdir. Tədqiqat işinin obyektinin dəqiqləşdirilərək araşdırılması, tədqiq olunması predmetin öyrənilmə səviyyəsini müəyyənləşdirir.

**Tədqiqat metodları:** Bu tədqiqat işinin aparılması zamanı araşdırmada bir neçə fərqli metoddan (analiz-sintez ,induksiya-deduksiya) metodlarından istifadə olunub. Analiz metodu istifadə edilən zaman mövzu başlığı götürülüb və altbaşlıqlara bölünərək ayrı-ayrılıqda təhlil olunub, mahiyyəti üzə çıxarılmışdı.

Daha sonra isə sintez metodundan istifadə edilərək onlar iqtisadi sistem üzrə birləşdirilmişdir. İnduksiya metodunun vasitəsilə isə öncə azad edilmiş bölgələrə aid sənədlər və faktlar toplanır sonra isə seçilərək sistemləşdirilir. İnduksiya metodun ən əsas vəzifəsi toplanmış faktların ümumi bir yerə gətirilməsi və izahının verilməsidir. Sonra isə toplanmış bütün faktlar əsasında ümumi prinsiplər, vacib tövsiyyələr, nəzəri nəticələr hazır edilir. Bu, deduksiya metodudur. Nəhayət, deduksiya metodu və induksiya metodunun tətbiq edilməsinin nəticəsi olaraq nəzəriyyədən faktlara sonra isə faktlardan ümumiləşdirməyə keçid olunur. Bununla yanaşı tədqiqat zamanı ümumiləşdirmə və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin hazırlanmasında bu sahə üzrə görkəmli alimlərin əsərləri, məqalələr, tədqiatçıların məcmu əsərləri, son zamanların yerli və xarici ədəbiyyatlarındakı məlumatlar, Azərbaycan respublikasının müvafiq qanunverici aktları və normativ-hüquqi aktları və ən asas da internet resurslarından geniş istifadə olunmuşdur. Eyni zamanda statistik məlumatlar da yer almışdır.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın məhdudiyyəti kimi onu göstərə bilərik ki, mövzu ilə bağlı ədəbiyyatların azlıq təşkil etməsi, yəni ki, Qarabağ və ətraf rayonların işğalçılıq siyasəti olaraq 30 il ərzində tam tədric olunmuş halda saxlanılması əsas məhtudiyyətlərdəndir.

**Tədqiqatın elmi yeniliyi:** İşğaldan azad olunmuş ərazilərin qurulmasında bu tip hadisələrin baş verdiyi ölkələr göstərilmiş və buradakı yenidənqurma

proseslərinin azad edilmiş ərazilərə tətbiqi və digər göstəricilərdən istifadə edərək dayanıqlı inkişafa təsir amilləri qiymətləndirilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiqi sahələri:** Nəticə olaraq onu qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın inkişaf etməsi üçün burada vergi və gömrük rüsumları azaldılmalı, xarici və yerli investorlar üçün stimulverici amillər olmalıdır. İnkişaf etmiş ölkələrdə əsasən vergi və digər rüsumların çox olması baxımından Qarabağ zonasında məharətlə istifadə etmək olar. Yəni ki, istənilən bir şirkət daha çox gəlir əldə edib daha az xərci çıxacağı yerə sərmayə yatırmaqda maraqlıdır. Bunlarla, yanaşı müasir dünyanın tələblərinə cavab verən turizm sənayesinin bir çox növləri üçün azad edilmiş ərazilərdə böyük perspektiv vardır. Dissertasiya işinin araşdırılmasından ortaya çıxan nəticələrdən müxtəlif elmi işlərdə, araşdırmalarda istifadə oluna bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ İNKİŞAFININ TƏMİN OLUNMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. İşğaldan azad olunmuş ərazilərin xarakteristikası

Qarabağın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsi yolunda Vətən müharibəsi Ali Baş Komandan cənab İlham Əliyevin komandanlığı altında rəşadətli Azərbaycan ordusunun şanlı qələbəsi ilə bitdi. Qarabağın bərpa olunması, hərtərəfli inkişafı, regionda infrastrukturun modernləşdirilməsi layihələri böyük uğurla həyata keçəcək.Qarabağ kimi böyük və iri potensiala sahib olan bir regionda irimiqyaslı, uzunmüddətli bərpa-quruculuq, dirçəliş və intensiv inkişaf prosesinə başlanıldığı bir vaxtda, bildirək ki, bölgədə ümumi iqtisadiyyatın və ümumiyyətlə məhsuldar qüvvələrin inkişafetmə istiqamətləri müəyyən olunarkən hər bir regionun müxtəlif xüsusiyyətləri və ölkəmizin qarşısında dayanan bütün strateji yönümlü vəzifələr nəzərə alınır. Elə buna görə də Qarabağın azad olunmuş rayon və şəhərlərinin öncəki həyatının yeni keyfiyyətdə bərpa olunması və inkişaf etdirilməsi daha da özünəməxsusluq kəsb edir (https://xalqqazeti.com/mobile/az/news/70145).

Azərbaycanın tarixi ədaləti bərpa edərək, öz torpaqlarını azad etməsi haqda məlumatlara keçməzdən öncə bu torpaqların işğal vaxtı haqda olan məlumatlara qısa nəzər salaq. Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min kvadrat kilometr ən məhsuldar ərazilərininc işğal edilməsinə, 9 yüz yaşayış məntəqəsinin, 150 min evin, 7 min ictimai binanın, 856 uşaq bağçasının, 928 kitabxananın, 694 məktəbin, 696 tibb müəssisələrinin, 45 məbədin, 9 məscidin, 40 min muzey eksponatlarının, 474 tarixi abidələr, muzeylər və sarayların, 6 min sənaye və kənd təsərrüfatı yönümlü müəssisələrinin, 160 körpünün, 2300 kilometr su kommunikasiyalarının, 2,6 min kilometr avtomobil yollarının, 2 min kilometr qaz kommunikasiyalarının, 15 min kilometr elektrik xətlərinin, 1 milyon hektar kənd təsərrüfatı üçün yararlı olan torpaqların, 280 min hektar meşələrin və 1,2 min kilometr irriqasiya sistemlərinin məhv edilməsinə səbəb olmuşdur. Mənfur

düşmən ermənistanın hərbi təcavüzünün nəticəsi olaraq 20 min nəfər Azərbaycan vətəndaşı həlak olmuş, 100 mindən çox yaralanmış, 50 min nəfərdən çox müxtəlif dərəcəli bədən xəsarətləri alaraq əlil olmuş, 4011 şəxs isə itkin düşmüşdür.

Erməni qəsbkarları işğal etdikləri torpaqlarda dövlətimizin mədəni irsini təşkil edən müxtəlif mədəniyyət obyektlərini amansızcasına məhv etmişlər. Ələ keçirdikləri torpaqlarda onlar 12 muzeyi, 6 rəsm qalereyasını, yüksək tarixi əhəmiyyətli 9 sarayı talan etmiş və yandırmışdılar. Nadir tarixi əhəmiyyəti olan 40 min muzey eksponatı və sərvəti talan edilmiş, 45 məbəd və 9 məscid təhqir olunmuşdur. Dağıdılan və tamamilə yandırılan 928 kitabxanada 4,6 milyon kitab və əlyazma nümunələri məhv olunmuşdur.İşğal vaxtı rayonlar və onların əhalisi haqda cədvəl 2-dəki məlumatları diqqətinizə çatdırmaq istərdim.

**Cədvəl 1: İşğaldan azad olunmuş rayonların işğal vaxtı olan statistik göstəriciləri**

| Sıra № | Rayonun adı | Ərazinin işğal tarixi | Məcburi köçkünlərin sayı | |
|---|---|---|---|---|
| | | | ailə | nəfər |
| 1. | **Xocavənd** | 02.10.1992 | 2 852 | 11 333 |
| 2. | **Xocalı** | 26.02.1992 | 3 846 | 14 406 |
| 3. | **Şuşa** | 08.05.1992 | 6 861 | 27 136 |
| 4. | **Laçın** | 18.05.1992 | 19 151 | 72 298 |
| 5. | **Kəlbəcər** | 02.04.1993 | 20 556 | 70 574 |
| 6. | **Ağdam** | 23.07.1993 | 35 247 | 144 406 |
| 7. | **Cəbrayıl** | 23.08.1993 | 16 294 | 66 833 |
| 8. | **Qubadlı** | 31.08.1993 | 9 146 | 34 945 |
| 9. | **Füzuli** | 23.08.1993 | 28 506 | 115 992 |
| 10. | **Zəngilan** | 29.10.1993 | 10 605 | 38 907 |
| 11. | Cəbhə xəttinə yaxın yaşayış məntəqələrindən geri çəkilən əhalinin sayı | | 54 837 | 192 120 |
| **CƏMİ:** | | | 207 901 | 788 950 |

**Mənbə:** http://shamkir-ih.gov.az/page/66.html

Rəşadətli Azərbaycan Ordusunun qələbəsi nəticəsində işğaldan azad olunmuş torpaqların respublikanın ümumi iqtisadiyyatına reinteqrasia olması, müasir regional və beynəlxalq nəqliyyat-logistika dəhlizlərinin açılması ölkəmizin inkişafına çox böyük təkan verəcəkdir. Bu çərçivədə regional təhlükəsizliyin, uzunmüddətli sabitliyin, rifahın və qarşılıqlı əlaqələrin formalaşması, həmçinin

iqtisadi, ticarət əlaqələrinin inkişafı Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın region iqtisadiyyatının ümumi strukturunun müəyyən olunmasında həlledici rolunu daha da möhkəmləndirəcək ( https://president.az/articles/50474).

İyirminci əsrin 80- 90-cı illərində Ermənistan Azərbaycanın tarixi ata-baba torpaqlarına aşkar formada ərazi iddiası ilə çıxış etmiş və dövlətimizə qarşı vandalizmi özündə əks etdirən təcavüzə başlamışdır. O dövrdə ölkəmizdə hökm edən hərc-mərclikdən çox məharətlə istifadə edən erməni quldurları tarixən yalnız və yalnız Azərbaycana mənsub olan torpaqlarımızın 20 faizini işğal etmiş və Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma ata-baba yuvasından qaçqın düşmüşdür.

2019-cu ildən sonra isə Ermənistan rəhbərliyinin bir-birinin dalıyca verdiyi təxribatçı bəyanatlardan sonra demək olar ki danışıqlar prosesini məqsədyönlü formada tamamilə pozmuşdur. Bununla da Ermənistan yenə də özünün məkrli məqsədinin mövcud status-kvonu daha da möhkəmləndirməkdən və Azərbaycan torpaqlarını qondarma respublikalarına ilhaq etməkdən ibarət olduğunu aydın göstərmişdir.Ermənistanın bir dövlət kimi qəbullandığı təcavüzkar və hücum yönümlü milli təhlükəsizlik strategiyası, işğal olunmuş Azərbaycan torpaqlarında qanunsuz yerləşdirmə siyasətini daha da genişləndirməsi, “yeni torpaqlar uğrunda yeni müharibə” şüarı, mülki şəxslərdən ibarət olan “könüllü dəstələri” yaratması, 2020-ci il iyul ayının 12-də Azərbaycan–Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində təxribatlar etməsi, bununla bərabər, ümumilidə qoşunların sərhəd zonalarında gərginliyi artırması, cəbhəyə yaxın yerlərdə qoşunlarını cəmləşdirməsi, böyük miqyasda silah toplaması Ermənistanın irimiqyaslı hücuma hazırlaşdığını aydın göstərirdi.

2020-ci il sentyabrın ayını 27-də Ermənistan ordusu beynəlxalq hüquq normalarını bir daha kobud formada pozaraq, fərqli-fərqli silahlardan, həmçinin ağır artilleriya qurğularından istifadə etməklə müxtəlif istiqamətdən ölkəmizin yaşayış yerlərini və hərbi mövqelərini intensiv atəşə tutmaqla törətdikləri növbəti təxribatın nəticəsi olaraq hərbçilər və mülki şəxslər arasında ölənlər və yaralananlar olduğu, Azərbaycanın təhlükəsizliyinə qarşı faktiki və potensial

təhdidlərin qarşısının alınması üçün Azərbaycan Ordusu tərəfindən əks-hücum başlamışdır.

Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı rayonlarının işğal edilməsi, birbaşa Azərbaycan Respublikasına qarşı silahlı hücum təhlükəsi olduğu, dövlətin, əhalinin və ərazilərin, həmçinin Silahlı Qüvvələrin və ayrı silahlı birləşmələrin müdafiəyə tam hazır vəziyyətdə olması məqsədilə Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyevin 2020-ci il 27 sentyabr tarixli Fərmanı ilə 28 sentyabr 2020-ci il saat 00:00-dan Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyət elan olunmuç, 2020-ci il 28 sentyabr tarixli Sərəncam ilə ölkədə qismən səfərbərlik elan edilmiş, hərbi əməliyyatlara hazır olmaq və onların keçirilməsinə dair qərarlar qəbul olunmuşdur.

İşğaldan azad olunmuş ərazilərin bərpa olunması, ilk baxışda sanki problem ilə birbaşa bağlılığı olmayan rəngarəng məsələlər toplusu ilə bağlıdır. Bunların arasında iqtisadiyyatın bütün xüsusiyyətləri , dünya iqtisadiyyatının indiki vəziyyəti, istehsal fəaliyyəti və inşaat texnologiyaları, ictimai gözləntilərin dəyişməsi meylləri, insan resursları, milli psixologiyanın özəll xüsusiyyətləri kimi müxtəlif məsələlər var. Söyləndiyi kimi, müəlliflər diqqətlərini əsasən aşağıdakı sektorlarda cəmləşdirməyə qərar vermişdilər. Bu dörd sektorun hərəsinin ayrı ayrılıqda özünə məxsus olan problemləri var.Tam aydındır ki, minimum həcmdə də olsa, dəqiq informasiya əldə olunmadan, onların həll yolları haqqında fikir yürütmək mümkün deyildir. Bu informasiya isə ancaq,müvafiq sahələr görə məsuliyyət daşıyan nazirliklərdə və dövlət orqanlarındadır.

1. Sosial xidmətlər.
2. İdarəetmə və təhlükəsizlik.
3. İnfrastruktur məsələləri.
4. İqtisadi dirçəliş problemləri.

Mütəxəssislər tərəfindən hesablanan ilkin təxmini qiymətləndirməyə görə ətraf mühitə, təbii sərvətlərə dəymiş ziyanın həcmi təqribən 265,5 milyard dollar həcmindədir. İşğaldan azad edilmiş torpaqlarda erməni işğalçılarının təbiətə və

bəşəriyyətə edilmiş əməlləri barədə ETSN tərəfindən Avropa Vəhşi Təbiətin və Təbii Mühitin Mühafizəsi üçün Bern Konvensiyasının Katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın Baş İcraçı katibinə, BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasına, Təbiətin və Təbii Sərvətlərin Mühafizəedilməsi üzrə Beynəlxalq Birliyin Başçısına rəsmi müraciətlər olunmuş, beynəlxalq təşkilatların nəzərinə bu istiqamətdə təxirolunmaz tədbirlərin görülməsinin vacibliyi çatdırılmışdır (https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var).

Azad olunmuş rayonlarımız tarixi-mədəni dəyəri, bənzəri olmaz təbiəti ilə birlikdə, yeraltı və yerüstü təbii sərvətlərə, çox zəngin iqtisadi potensiala, böyük turizm ehtiyyatlarına malikdir. İşğaldan azad edilmiş rayonlarımız aqrar sahədə üstünlüyü, xammal ehtiyyatı və emal sənaye istehsalatı baxımından çox əlverişlidir. O torpaqların iqtisadi potensialının ən əsas parametrlərinə nəzər yetirsək görərik ki, mənfur Ermənistanın talançılığı, məhvedici şəkildə istismar etməsinin nəticəsi olaraq regionun infrastrukturu hal-hazırda yox səviyyəsinə gəlib çatmışdır.

İşğal nəticəsində neçə minlərlə hektar əkinəyararlı torpaqlar hərbi tullantılarla çirklənmiş, ölkəmizin iqtisadiyyatına və dünyanın genofonduna bir neçə milyard manat həcmində zərər vurulmuşdur.Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Səfərov Niyazinin açıqladığı statistik göstəricilərə əsasən, işğaldan azad olunmuş ərazilərdə 7 rayon, 6 şəhər, 12 qəsəbə, 832 kənd, 700 tibb müəssisəsi və xəstəxanası, 6 dövlət teatrı, 370 klub, 86 musiqi məktəbi, 610 kənd və sənaye təsərrüfat müəssisəsi dağıdılıb, məhv edilib, bir milyon hektardan artıq kənd təsərrüfatı sahəsi, həmçinin, təqribən, 130 min suvarılan torpaq sahəsi, 36 min hektara qədər üzüm və meyvə bağları vəhşicəsinə məhv olunaraq dövriyyədən çıxarılıb.Torpağlarımız işğal olunanan qədər ölkə üzrə ümum daxili məhsul istehsalının 25 faizi, üzüm istehsalının 40 faizi, kartof istehsalının 47 faizi, ət istehsalının 19 faizi, süd istehsalının 35 faizii o rayonların payına düşübdür.Erməni işğalı ölkənin su resurslarına ciddi zərər vurub. Bütün meşə sahələrinin 25 faizi, yəni ki 280 000 hektarı işğal edilən ərazilərin payına

düşürdü. Mənfur düşmən sərvətlərimizin qanunsuz istismar edilməsi ilə Kəlbəcərdə çox böyük miqdarda qızıl hasilatı edib.

Qeyd olunan statistik məlumatlar gələcəkdə görüləcək işlərin ölçüsü barədə müəyyən təsəvvür yaradır. Buna görə də, Dağlıq Qarabağ və onun çevrəsində yerləşən, əvvəli Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunda olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan rayonlarının ,Cəbrayıl, Ağdam Füzuli rayonlarının intensiv inkişaf etdirilməsi çoxlu və fərqli sektorları özündə birləşdirən kompleks yanaşma tələb edir. Burada, birinci növbədə, təhlükəsizliyin təmin olunması və idarəetmə məsələlərinə xüsusi ilə diqqət olunmalıdır. Təhlükəsizliyin təmin edilməsi dedikdə, azad olunmuş ərazilərin minalardan tamamilə təmizlənməsi, həyati təhlükəyə səbəb olan ekoloji və bioloji pozuntuların tez bir zamanda aradan götürülməsi nəzərdə tutulur. Dövlət sərhəd xidməti və dövlət polis nəzarətinin təşkil edilməsi, dövlət orqanlarının fəaliyyət sahəsi isə inzibati idarəetmə məsələlərini özündə əhatə edir.

Hal-hazırda işğaldan azad edilən torpaqlarda fərqli xidmət sahələrinin bərpa olunması prosesi sürətlə davam etdirilir. "Azərişıq" ASC işğaldan azad olunmuş torpaqlarda xüsusi əhəmiyyətli strateji obyektlərin davamlı elektrik enerjisi ilə təmin edilməsi üçün təxiredilməz tədbirlər həyata keçirir. Bu müəssisənin rəsmilərinin bildirdiyi kimi, azad edilən torpaqlardayeni, müasir güc mərkəzlərinin yaradılması, son model müasir texnologiyalardan, yeni elektron rele mühafizəsi və avtomatik sistemlərini, uzaqdan dispetçer nəzarətetmə sistemini tətbiq etməklə yüz on, otuz beş və bir kilovoltluq yeni şəbəkələrin yaradılması, ÖİN tipli naqillərdən istifadə etməklə otuz beş və bir kilovoltluq elektrik xətlərinin çəkilməsi üzrə tam yeni layihələr hazır edilib, bu layihələrin tədricən mərhələli şəkildə yerinə yetirilməsi nəzərdə tutulub. "Azercell Telekom" öz növbəsində azad edilmiş torpaqlarda ilk mobil infrastrukturunu yaradır və dördüncü nəsil LTE tipli radio baza stansiyalarını quraşdırır. Başqa mobil operatorlar – "Nar" şirkəti, "Bakcell" şirkəti də bu tip infrastruktur layihələrin yaradılması və daxili layihələndirmə işlərini bitirərək fəaliyyət planını reallaşdırmaqdadır.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı və iqtisadçı Vüqar Bayramovun fikirlərinə görə, işğaldan azad edilmiş rayonlarımızın bərpa proseslərindən sonra, xüsusilə də Laçın rayonunu, Kəlbəcər rayonunun iqtisadi potensialı, həmçinin, ölkə üzrə ÜDM-dəki payının qiymətləndirilməsi onu göstərir ki, o torpaqlarda iqtisadiyyatın dəfələrlə böyüməsi mümkündür.Azad olunmuş ərazilərin iqtisadi potensialı çoxşaxəli olub, kənd təsərrüfatı sahəsini, sənayenin və turizmin fərqli sahələrini özündə birləşdirir. İşğaldan azad olunmuş torpaqlarda üzümçülük, tütün plantasiyaları, pambıqçılıq, baramaçılıq, bostançılıq və heyvandarlığın inkişaf etdirilməsi üçün çox böyük potensial vardır. Həmin ərazilərdə üzüm, noxud və qarğıdalı bu bölgənin xarekterik bitkilərindəndir.

Nəzərinizə çatdıraq ki, Füzuli və Ağdam rayonları işğal olunandan öncə üzüm, taxıl, pambıq istehsal gücünə görə ölkəmizdə ön sırada olan rayonlardan idi. Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında da üzüm sahələri xüsusilə seçilirdi. Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunda yerləşən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonlarında heyvandarlıq çox yüksək səviyyədə inkişaf etmişdir. Göründüyü kimi, azad olunan torpaqlarımızın təbii imkanları, kənd təsərrüfatına yararlı sahələrin potensialı regionda iqtisadiyyatın daha tez, daha sürətlə bərpa edilməsinə şərait yarada bilər.Onu da vurğulamaq lazımdır ki, bu ərazilərin işğal olunmasına qədər ümumi Qarabağ regionunda beynəlxalq ekspertlərin, tanınmış alimlərin bilavasitə iştirakı ilə çox sayda ekspedisiyalar keçirilmişdi. Bu şəxslərin araşdırmalarının yekun nəticələrinə görə, bu regionda olan torpaqlar biomüxtəlifliyinə görə, genetik ehtiyatlarının zənginliyinə görə bütün Qafqaz regionunda xüsusi ilə seçilir.

Qarabağ ərazisində bir çox efiryağlı, aromatik, dərman və başqa qeyri-ənənəvi bitki növlərinin də vətənidir. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada bitən xarı bülbül Qarabağ bölgəsinin rəmzi hesab edilir. Bu unikal bitki həm də Azərbaycanın Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ruhuna ehtiram, hörmət əlaməti olaraq anım gününün bir simvoludur. Dağlıq Qarabağ bölgəsi və onun ətrafında yerləşən 7 inzibati rayon böyük xammal ehtiyyatına

malikdir. Bu rayonlarımızda qızıl, mis, əqiq, civə, dəmir, əhəng, xromit, perlit, o cümlədən inşaat materialları üçün böyük xammal ehtiyyatları vardır.

Misalçün, işğaldan azad olunmuş Cəbrayıl rayonunun yenidən bərpası üçün bir çox tikinti materiallarının ehtiyatları bu rayonun özündə vardır: mişar daşı istehsalı üçün yararlı olan Tulus tuf, tikinti üçün qumu, kərpic istehsalı üçün çox yararlı olan Qaracallı gil, sement istehsalında bilavasitə yararlı olan vulkan külü, əhəngdaşı, qum-çınqıl, xalsedon və meşə ehtiyatları. Zəngilanda yerləşən Vejnəli, Ağdərədə olan Qızılbulaq və ən əsas Kəlbəcərdəki Zod yataqları böyük sənaye ehtiyatlarına malik qızıl yataqlarıdır.Yeni növ təbii resursları dövriyyəyə buraxmaqla Azərbaycan qərb regionunun inkişafı, dağ-mədən sənayesinin yüksəlişini həçinin metallurgiya kompleksinin yüksəlişini tam təmin etmək potensialına malikdir. Azərbaycanda digər sənaye sahələri ilə birgə metallurgiyanın inkişafı həm də hərbi sənayenin inkişaf etməsini sürətləndirmiş olacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəylərində qeyd edilir ki, ilk baxışdan faydalı qazıntıların gələcəkdə istismar edilməsi üç istiqamət üzrə aparıla bilər: tikinti materialları və nadir metallar, əlvan metallar və onların metallurgiyası. Tikinti materialları və Əlvan metallar iqtisadiyyatın ənənəvi sahəsi üçün xas olan sektordur və mövcud olan ehtiyatlar həmən sahələrdə yeni müasir güclərin yaranmasına şərait yaradacaqdır. Bundan əlavə həm də yüksək texnologiyalarda çox istifadə edilən nadir metalların bölgədə mövcud olması ilə bağlı araşdırmalar, geoloji işlər aparıla bilər. Azad edilmiş regionun sənaye ehtiyatlarını dörd istiqamət üzrə qiymətləndirə bilərik: zəngin su təchizatı və faydalı qazıntılar emalı, elektrik enerjisi, sənaye rekreasiya etiyatları. Bu region, ərzaq və emal sənayesinin davamlı inkişafı üçün də çox əlverişlidir. Azad olunan ərazilərimiz zəngin mineral və termal su ehtiyyatları ilə də zəngin olan bir bölgədir. Gələcəkdə bu ehtiyatlardan içməli su kimi, meliorasiya, həm elektrik enerjisi üçün istifadə olunacaqdır. Ölkəmiz bu ehtiyatlarını səmərəli idarə etməklə həm mənfur düşmənin ölkəmizə qarşı uzun illər apardığı hidro müharibəni bitirəcək, həm də düşmənin özünə qarşı da nəzarət imkanı əldə edəcək.

Bu regionda Kəlbəcər və Laçının şirin su potensialını xüsusi qeyd etmək lazımdır. Respublikamızın hündürlüyünə görə ən yüksək, yəni 125 metr yüksəklikdə, ümumi həcmi 561 mln. kubmetr olan Sərsəng su anbarının azad edilməsi ilə Tərtər, Bərdə, Goranboy rayonları həmçinin Yevlax və Ağcabədi suvarma suyu ilə təmin ediləcək. Bundan başqa, Cəbrayıl və Zəngilan rayonunda olan Xudafərin su anbarının azad edilməsi 75 000 hektar yeni ərazinin su ilə təmin edilnməsi deməkdir. Bununla yanaşı, bölgədə 11 yeraltı şirin su qaynağının olduğu güman edilir. Ölkəmizin mineral su resurslarının 40 faizə qədəri işğaldan azad olmuş torpaqlardadır. Bunlardan Kəlbəcərdə Aşağı və Yuxarı İstisu, Geşdək, Laçında oaln İlıqsu, Minkənd, Şuşada Turşsu, Şırlan və digər mineral sular diqqəti cəlb edir.

Bu təbii sərvətlərin həm qablaşdırılmış formada satışı, həm də bulaqların ətrafında kurort-rekreasiya infrastrukturunun qurulması mümkündür. Bu ərazilərin sənaye rekreasiya ehtiyyatlarından danışarkən onu da vurğulamalıyıq ki, ən əsas elektrik enerjisi istehsal edilməsi su təchizatı və yığımı areallarına uyğun gəlir. Mövzu təbii ki, Xudafərin və Sərsəng Su Elektrik Stansiyalarıdır. Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Araz çayının üstündə Xudafərin bəndi, Qız qalası bəndi və elektrik stansiyalarının qurulması və istismarı haqqında İran İslam Respublikası ilə gəldiyi razılaşmanın aktuallığı hal-hazırda daha da artır.

"Xudafərin" hidroqovşağı ölkəmizi il ərzində 368 mln. kilovat/saat elektrik enerjisi ilə təmin edəcəkdir. Burada həmçinin suvarma imkanları vardır. Aparılan araşdırmalardan, istinad edilən ekspert rəylərindən görünür ki, Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 inzibati rayonun kənd təsərrüfatı, sənaye potensialı böyükdür. Xammal bazası və təbii resurslar ilə olduqca zəngindir. Bütün bunlar, azad edilmiş ərazilərin bərpa prosesindən sonra tez bir zamanda iqtisadiyyatının intensiv inkişaf edəcəyini göstərir. Kiçik Qafqazın dağlıq zonasını əhatə edən Qarabağ regionu fərqli təbiət abidələri, zəngin meşələr, çox nadir bitki və heyvanat aləmi ilə məşhurdur. Bu regionun ümumi meşə sahəsi, təqribən, 246700 hektardır, həmçinin, 13198 hektarı qiymətli meşə sahələridir. Burada təbii landşaftı, nadir

heyvanat və bitki aləmini qorumaq məqsədi ilə Kiçik Qafqazın azad olunan yerlərində vaxtilə bir çox qoruq və yasaqlıqlar var idi. Bunlara Bəsitçay, Qaragöl Qoruğları, Laçın, Qubadlı, Daşaltı Yasaqlığları və Arazyanı Dövlət Təbiət Yasaqlığı aiddir. Zəngilan rayonunda Bəsitçay dərəsini əhatə edən qoruqda çay qırağı çinar meşəliyi on üç kilometr uzanır. Burada bitən ağacların yaşı, təxminən, 500 ilə çatırdı. Qədimiliyi ilə seçilən şərq çinarı bir vaxtlar "Qırmızı Kitab"a daxil olunmuşdur. Bütün bunlar, Qarabağ bölgəsinin zəngin təbiəti əsasında, qədim tarixi abidələrin və flora və faunasının əsasında turizmin sektorunun inkişaf etməsi üçün böyük bazaya malik olduğunu göstərir.

Dünyada ən qədim yaşayış məskənlərindən biri olan , Fizuli rayonunda yerləşən Azıx mağarasının, Qarabağ bölgəsinin dağlıq və düzən hissəsində tapılmış qədim daş abidələr,Xocalıda olan dolmenlər, Xankəndi şəhərindəki kromlexlərin, Gənçəsər (Qanzasar), Yelisey, Alban-Amaras, Ağoğlan qalası, Xudavəng, kimi tarixi qədimə sökənən məbədlərin turizm imkanları çox genişdir. Hal-hazırda Qarabağ bölgəsində 50-yə yaxın hotel vardır. Bir sıra xarici şirkətlərin işğal zamanı Qarabağ regionuna investisiya qoyması faktları müəyyən edilmişdir. İnanırıq ki, Azərbaycan torpaqlarında belə şirkətlərin cinayət yönümlü fəaliyyətləri birmənalı şəkildə cavabın alacaqdır. İnvestisiya yatıran həmən sahibkarlar da bu qanunsuz fəaliyyətinə görə gec-tez cinayət məsuliyyətinə cəlb ediləcəklər. Qarabağ ərazisində təhlükəsizlik təmin olunduqdan, infrastruktur yenidən qurulduqdan və demoqrafik məsələlər həll yolunu tapdıqdan sonra turizmin təşkil edilməsi üçün kompleks layihələrin reallaşdırılması olacaqdır. Bu platformada dövlət sektoru, özəl sektor və alimlərin birlikdə gördükləri işlər sayəsində Qarabağ regionunun yenidən turizm potensialı işlənib hazır edilməli, antropogen və təbii turizm ehtiyatlarına diqqət edilməlidir.

Qarabağ bölgəsi əsasən dağlıq relyefə sahib olduğuna görə, turizmin alpinizm və dağçılıq növlərinə xüsusi diqqət etmək lazımdır. Qarabağ bölgəsinin zəngin təbiətinə, qədim tarixinə və tarixi-mədəni abidələrinə, digər tikililərinə görə ekoturizm, etnoturizm zonası olaraq inkişaf edəcəkdir. Dünyada olan turizm məkanlarından ən gözəl biri kimi turistlərin üstünlük verəcəyi bir region

olacaqdır. İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı ilə birgə erməni vandalları tərəfindən saxtalaşdırılan abidələrin də həqiqi keçmiş tarixlərinə qovuşması həll yolunu gözləyən önəmli məsələlərdəndi. Mənfur düşmənin işğalının nəticəsi olaraq talan edilmiş, məhv olunmuş muzeylərin bərpa edilməsi, yeni muzeylərin yaradılması, həmçinin, Şuşa şəhərində şanlı Azərbaycan Ordusunun qələbəsini özündə təcəssüm etdirən muzey kompleksinin təşkil edilməsi çox əhəmiyyətli olardı.

Mənim fikrimcə, erməni vandalizminin, faşizminin buraxdığı izləri tarixdə maddiləşdirmək üçün azad edilmiş rayonlarımızın hamısında xarabalığa çevrilmiş infrastrukturun nümunələri tarixi eksponat olaraq olduğu kimi saxlanmalıdır. Erməni millətinin işğalçılıq siyasətinin, saysız cinayətlərinin sübutları kimi həmin eksponatlar gələcək nəsillərimizə, dünyadakı soydaşlarımıza, bütün dünyaya erməni faşizminin reallıqlarını əyani formada açıqlayacaq. Azad olunmuş torpaqlarda yaradılacaq yeni iqtisadi dəyər ölkəmizin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Azad edilmiş ərazilərin bərpası prosesində çoxlu təzə iş yerləri açılacaq. Yəni ki, yeni infrastruktur layihələrinin reallaşdırılması vətəndaşlarımızın işlə təmin edilməsində müsbət təsiri olacaqdır. İqtisadiyyatın inkişaf etməsi yeni iş sahələrinin açılmasına zəmin yaradacaq. Şanlı ordumuzun qələbəsi ilə nəticələnən bu mübarizə qeyri-neft sektorunun daha da inkişaf etməsinə, ölkəmizin iqtisadiyyatının daha da böyüməsinə təkan verəcək.

Azad edilmiş ərazilərdə təbii ehtiyatlar var, ama həmin ehtiyatların iqtisadiyyat üçün yüksək səviyyədə əlavə dəyər yaratması ilə bağlı iddialar gerçək hesablanmalara əsaslanmır: Ölkəmizdə təbii resurslara əsaslanan mədən sənayesinin əmələ gətirdiyi əlavə dəyərin 95 faizini neft-qaz sektoru təşkil edir. Qiymətli və başqa növ metalların ortaya çıxartdığı əlavə dəyərin ümumi illik miqdarı heç 100 mln. manatı da keçmir. Bu, ÜDM-in 0,12 faizi deməkdir. Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunda yerləşən Kəlbəcər və Zəngilan rayonlarının qiymətli metal istehsalı baxımından Gədəbəy və Daşkəsən rayonunda yerləşən mədən sənayesindən daha çox potensialı var, lakin bu ehtiyyatlar, bu bölgələrin əhalisi və sahəsi baxımından çox da böyük məbləğ

deyil. Azad edilmiş torpaqların ən böyük potensialı, düzgün təşkil olunarsa, turizm ilə bağlı olacaqdır.

Tibbi turizmi üçün böyük imkanlar mövcuddur, həmçinin istirahət və tarixi turizmi üçün də. İşğaldan azad edilmiş ərazilərin turizm gəlirləri dövlətimizin indiyə qədər qzandığı turizm qazanclarından dah çox ola bilər. Burada söhbət minimum 1,5 mlrd. dollardan gedir. Çox böyük potensiala mənsub olan aqrar sektoru xüsusi ilə vurğulamaq lazımdır. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Fizuli rayonlarında kənd təsərrüfatı üçün çox yararlı torpaqlarının ümumi sahəsi 535 min hektara yaxındır. Ağdam, Füzuli və Cəbrayıl rayonları əsasən bitkiçilik üçün daha uyğundur. Bu üç inzibati rayonun kənd təsərrüfatı üçün yararlı olan torpaqlarının ümumi həcmi 290 min hektara yaxındır və bunun təxminən üçdə iki hissəsi əkinə yararlı torpaqlardır. Yerdə qalanları isə yay və qış üçün biçənək və örüş torpaqlarıdır.

Qubadlı və Zəngilan rayonlarının həm əkinçilik üçün həm də heyvandarlığ üçün imkanları vardır. Bu bölgələrin kənd təsərrüfatına yararlı olan torpaqlarının cəmi sahəsi 67 min hektara yaxındır və bunun təqribən üçdə bir hissəsi əkinə yararlı, digər hissəsi isə örüş və biçənək sahələridir. Kəlbəcər və Laçın rayonlarının kənd təsərrüfatına yararlı olan torpaq sahələrinin ümumi sahəsi 180 min hektara yaxındır və bunun ən yaxşı halda 16 faizi əkinə yararlı torpaqlardır. Bu rayonların əraziləriu əsasən heyvandarlıq üçün daha uyğundur. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Fizuli rayonlarının bazasında olan əraziləri hesablasaq, təxminən, kənd təsərrüfatı üçün yararlı olan torpaqların 50 faizindən çoxu heyvandarlıq üçün daha əlverişlidir. Belə qərara gəlmək olar ki, digər potensial sahə kimi burada aqrar sektora sökənən emal sənayesinin yaradılması perspektivləri vardır. Dövlətimiz kərə yağının 50 faizini, ət və ət məhsullarının 16 faizə qədərini xaricdən idxal edir. Bu asılılığı bitirmək mümkündür. Əlavə olaraq həm də, ət məhsullarının ixrac üçün emalı perspektivlərini araşdırmaq olar.

**Regionun təbii landşaftı və turizm potensialı**

İşğaldan azad olunmuş regionda fərqli təbiət abidələri, nadir bitki, heyvan növləri yayılmışdır. İşğaldan azad olunan Kiçik Qafqazın dağlıq sahəsi

Azərbaycanın böyük meşə rayonudur. Regionun ümumilikdə meşə sahəsi təqribən 246700 hektardır, o cümlədən 13197 hektarı qiymətli meşə əraziləridir. Ölkəmizdə mühafizə edilən təbiət ərazilərinin sahəsi hal-hazırda 890000 hektara qədər çatdırılıb ki, bunun da təxminən 42997 hektarı işğaldan azad olunmuş ərazilərdədir.

Təbii landşaftını, bitki və heyvanlar aləmin mühafizə etmək məqsədilə Kiçik Qafqazın işğaldan azad edilmiş ərazilərində bir çox qoruq və yasaqlıqlar təşkil edilmişdir. Bunlara misal olaraq, Bəsitçay Qoruğunu və Laçın yasaqlığını qeyd etmək olar. Bəsitçay qoruğu respublikanın cənub-qərbində işğaldan azad olunmuş Zəngilan rayonunda Bəsitçay dərəsində 1974-cü ildə yaradılmışdır. Bu qoruğun ümumu sahəsi, təxminən, 108 hektara yaxındır. Bu ərazidə qorunan obyekt şərq çinarıdır. Çinar meşəliyi çay qırağınca 12 kilometr məsafədə uzanır.

Bu ərazidə bitən ağacların bəzilərinin yaşı 500 ilə qədər idi və şərq çinarı "Qırmızı Kitab"a düşüb.Laçın yasaqlığı işğaldan azad edilmiş Laçın rayonunda 1961-ci ildə təşkil olunmuşdur. Ümumi sahəsi 21400 hektardır. Bu yasaqlıqda çöl donuzu, cüyür, turac, çöl donuzu, kəklik mühafizə edilirdi və işğaldan sonar da mühafizə edilir. Bununla bərabər, Dağlıq Qarabağda ən dilbər guşələrindən olan Şuşanın füsunkar təbiəti də turizm sahəsi üçün çox perspektivlidir. Azərbaycan Respublikasında yeganə olaraq Şuşada bitən xarı bülbül Qarabağımızın milli rəmzi hesab edilir.

**Regionun sənaye potensialı**

Sovetlər zamanında Dağlıq Qarabağ Qarabağın düzən hissəsi ilə və başqa iqtisadi rayonlarla sıx iqtisadi münasibətdə inkişaf edib. Bu istiqamətlərdə keçən yollar iki bölgəni iqtisadi cəhətdən bir-birinə çox möhkəm bağlamışdır.Dağlıq Qarabağ bölgəsinin ermənilər tərəfindən işğal edilməsi və başqa Azərbaycan bölgələrindən qopması regionun əhalisi və təsərrüfat sahəsi üçün ciddi problemlər yaratdı. Uzun müddətdən bəri Dağlıq Qarabağ ərazisində olan müəssisələrin əksəriyyəti Azərbaycanın digər rayonlarından gətirilən xammal, yanacaq və digər materiallar əsasında işləyirdilər, bunların çoxları isə Bakının böyük müəssisələrinin filialı kimi fəaliyyətdə idilər.

1985-ci ildə Qarabağın Xankəndindəki yerləşən böyük İpək Kombinatına gətirilən barama xammalının cəmi 9 faizi Dağlıq Qarabağda istehsal edilirdi. Digər 92 faizi isə Azərbaycanın başqa rayonlarından bura gətirilirdi. Dağlıq Qarabağın 1986-cı ildəki xarici iqtisadi əlaqələrin cəmi 0.3 faizii, idxalının isə 1.4 faizi Ermənistanın payına düşdüyünə baxmayaraq, Azərbaycana onun ixracatının üçdə bir hissəsi düşürdü.Keçmiş DQMV-nin mərkəzi olan Xankəndi bir vaxtlar birbaşa ölkənin digər şosse və dəmir yollarına və ümumilikdə Azərbaycanın nəqliyyat-kommunikasiya sına sıx bağlı olmuşdur.

Xankəndindən Bakıya qədər olan dəmir yolunun uzunluğu 392 kilometrdir. Bu amil ölkəmizin gələcəkdə inkişaf etməsində çox vacibdir, hal-hazırda bu nəqliyyat sistemi yenidən qurulmaqdadır. Zəbt edilmiş bölgələrdə uzun illər boyu fəaliyyətdə olan vahid nəqliyyat-kommunikasiya sistemi mənfur düşmənin təcavüzünün nəticəsi olaraq hal-hazırda dağıdılmış və bərbad haldadır.Bu araşdırmada zonanın sənaye potensialına 4 aspektdən baxılır, mövcud olan başqa inkişaf aspektləri isə növbəti dövrlərdə daha da böyük tədqiqatlarla açıqlanacaq. Deməli, ilk baxışda zəngin su təchizatı, davamlı elektrik enerjisi, sənaye rekreasiya ehtiyyatları və zəngin faydalı qazıntılar işğaldan qurtulan torpaqların sənaye potensialının karkasını özündə birləşdirir.

**Regionun su təchizatı imkanları**

Hal-hazırda bütün dünyada iqlimin dəyişməsi və onun nəticəsi olaraq su çatışmazlığı ən aktual problemlərdəndir. Su qıtlığı ölkəmiz üçün də önəmlidir. Heç kəsə sir deyil ki, ölkəmizin su ehtiyatları coğrafi səbəblərə görə daha qıtdır və əsas mənbələr qonşu dövlətlərdədir. Azərbaycan ərazisində su ehtiyatlarından səmərəli şəkildə istifadənin təmin olunması üçün Azərbaycan Respublikasının Prezidentinin 15 aprel 2020-ci il tarixli Sərəncamına əsasən yaradılmış Dövlət Komissiyası fəaliyyətdədir. Azad edilən ərazilərin çox zəngin su ehtiyatları Azərbaycanın sənaye və kənd təsərrüfatı sahəsi üçün xüsusi əhəmiyyətlidir. 1976-cı ildə Tərtər çayının üstündə keçmiş Ağdərə, indiki Tərtər rayonunda Sərsəng su anbarı inşa edilmişdir. Onun ümumi tutumu 560 mln. $m^3$, qarşısını kəsən bəndinin hündürlüyü isə 126 metrdir. Respublikanın ən hündür bəndə malik olan su anbarlarından biri

də Sərsəng su anbarıdır. Bu su anbarının yerləşdiyi Ağdərə rayonunun işğaldan azad edilməsi Azərbaycanın Ağcabədi, Ağdam, Goranboy, Bərdə, Yevlax və Tərtər rayonlarının 100 000 hektara qədər torpaqlarını su ilə təmin etməyə şərait yaradacaqdır.

Onu da vurğulamaq lazımdır ki, azad edilmiş regionda Sərsəng su anbarı ilə yanaşı digər həcmi 80 mln. $m^3$ olan başqa su anbarları da vardır. Həmən anbarların da ölkə təsərrüfatına qoşulması ilə əlavə olaraq 15000 hektar sahənin suvarılmasına imkan yarada bilər.Bundan başqa, Zəngilan və Cəbrayıl rayonlarında yerləşən Xudafərin su anbarının düşməndən azad edilməsi 75000 hektar yeni sahənin suvarılması və bununla bərabər suvarılan sahələrin suvarılmasının daha da yaxşılaşdırılması deməkdir. Bəzi hesablamalara görə Xudafərin su anbarının ümumi tutumu 1.6 mlrd. kubmetrdir. Güman olunurkiu bu bölgədə 11 yeraltı şirin su qaynağı da vardır. Başqa formada desək, bu 1 mln 968 min m3/gün şirin su təchizatı deməkdir.

**Regionun elektrik enerjisi resursu**

Əsasən regionun elektrik istehsalı su yığımı və təchizatına uyğun gəlir. Mövzu təbii ki, Xudafərin və Sərsəng su elektrik stansiyalarından gedir.Sərsəng su elektrik stansiyı və ya başqa adı ilə Tərtər su elektrik stansiyı 1976-ci ildə Tərtər çayının üstündə, o zamanki Ağdərə (indi Tərtər) rayonunda inşa olunmuş SES-dir. Hərəsinin ayrı-ayrılıqda gücü 25 MVt olan iki ədəd turbini olan SES hal-hazırda qeyri-qənaətbəxş haldadır. Stansiyada təmir işləri aparılandan sonra, potensial istehsal gücü daha çox artırıla və başqa rayonların elektrik enerjisinə olan tələbatının ödənilməsinə istiqamətləndirilə bilər.

Xudafərin su elektrik stansiyı isə Araz çayının üzərində İran ilə Azərbaycan Respublikası arasında imzalanan razılaşmaya əsasən qurulur. Belə ki, 2016-cı il fevral ayında Azərbaycan Hökuməti ilə İran Hökuməti Araz çayı üstündə “Qız Qalası” və “Xudafərin” hidroqovşaqlarının və SES-lərinin tikintisinin davam olunması, istismar edilməsi, energetika və su ehtiyatlarından səmərəli istifadə edilməsi sahəsində əməkdaşlığa aid saziş imzalanmışdır.

Araz çayı üzərində yerləşən su elektrik stansiyalarının bütün gücü 290 meqavata çata bilər. Gələcəkdə bu layihələrin həyata keçməsi Azərbaycana bir ildə 370 mln. kVt/saat elektrik enerjisi gətirə bilər. Sərsəng və Xudafərin su elektrik stansiyaları başqa rayonların enerji təminatının gücləndirilməsində, azad olunmuş torpaqların bərpa olunmasında aktiv istifadə olunacaqdır. Ümumiyyətlə bu SES-lərin Azərbaycanın enerji sisteminə daxil olması güclərin artırılması ilə bərabər, mənbələrin coğrafi diversifikasiyası, yəni ki Mingəçevir, Şirvan ,Abşeron üzərindən yüklərin azaldılması, həm də bərpa olunan enerji istehsalının istehsalda payının çoxaldılması deməkdir.

**Regionun sənaye rekreasiya imkanları**

Ehtimal olunur ki, ölkəmizin mineral su ehtiyyatları ümumi geoloji ehtiyatlarının 39 faizi işğaldan azad olunmuş rayonların payına düşür.Azad edilmiş ərazilərdə çox böyük müalicə əhəmiyyətili olan 120-ə qədər fərqli tərkibli mineral sular vardır. Başqa ölçü ilə bu bir gün ərzində 7805 kub metr su təchizatı deməkdir.Bunların arasında Kəlbəcər rayonunda yerləşən Yuxarı və Aşağı İstisu, Keşdək, Laçında İlıqsu, Minkənd, Şuşada Turşsu, Sırlan və digər mineral sular diqqəti daha da cəlb edirlər. Kəlbəcərdə yerləşən İstisu mineral suyu əlverişli qaz və kimyəvi tərkibinə görə , yüksək müsbət temperaturuna, böyük həcmdə təbii ehtiyatlarına görə xüsusi ilə seçilir.

Ötən əsrin sonlarında İstisu bulağı üzərində böyük kurort zonası və mineral sudoldurma zavodu qurulmuşdur. Bu zavodda gün ərzində 800000 litr su istehsal olunurdu. Şuşadan 17 kilometrlik məsafədə Turşsu mineral bulağı yerləşir. Bu su ilə fərqli-fərqli daxili xəstəliklər müalicə edilir, boru vasitəsi ilə Şuşaya su verilir. Deməli, bu ərazilərin su ehtiyatı içki sənayesində müasir, yeni emal güclərinin təşkil olunmasına imkan yarada bilər.

**Regionun yeyinti sənayesi potensialı**

Ermənistanın hərbi təcavüzünün nəticəsi olaraq Azərbaycan ümumilikdə 1.7 mln. hektar ərazisi işğal edilmişdir. Bu ərazilərin çoxu fərqli növ kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün çox yararlıdır. Qeyd etdiyimiz məhsulların emal

edilməsi yeyinti sənayesində yeni güclərin meydana gəlməsinə, etibarlı təchizat bazasının formalaşdırılmasına şərait yaradacaqdır.

## 1.2. Azad olunmuş ərazilərlə bağlı hüquqi təminat

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev, Ermənistanın Baş naziri və Rusiya Federasiyasının Prezidentinin 10 noyabr 2020-ci ildə imzaladıqları Bəyanatda qeyd olunmuş maddələrin icrasından irəli gələn, həmçinin Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında humanitar, sosial-iqtisadi, təşkilati və digər təxiredilməz məsələlərin həlli, həmçinin bu sahədə fəaliyyətin əlaqələndirilməsi üçün Əlaqələndirmə Qərargahı yaradılmışdır (Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı).

Ali baş komandan İlham Əliyevin 7 iyul 2021-ci ildə imzaladığı **"Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında"** olan fərmana görə **Qarabağ iqtisadi rayonu** (Xankəndi şəhəri, Xocalı, Ağcabədi, Ağdam, Xocavənd, Bərdə, Füzuli, Şuşa və Tərtər rayonları) və **Şərqi Zəngəzur iqtisadi rayonu** (Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları) yaradılmışdır.

Fərmanda qeyd olunubki ki, hal-hazırda azad olunmuş torpaqların bərpa edilməsi, gələcək inkişafının təmin edilməsi, zəruri infrastrukturun qurulması və əhalinin öz doğma yerlərinə qayıdışı üçün irimiqyaslı tədbirlər gerçəkləşdirilir. Qeyd olunan torpaqların zəngin iqtisadi ehtiyyatlarından, təbii sərvətlərindən və böyük turizm-rekresiya imkanlarından düzgün istifadə etməklə onların bərabər inkişafının təmin olunması üçün nəzərə alınan işlərin vahid proqram əsasında düzgün aparılmasının məqsədə müvafiqliyi torpaqları işğaldan azad olunmuş bölgələrin iqtisadi rayonlar üzrə bölgüsünə bir daha baxılmasını şərtləndirir.

Zəngəzur silsiləsi ilə əhatə edilən, Kəlbəcər və Laçın rayonlarından Naxçıvana qədər olan böyük bir ərazini əhatə edən Zəngəzur yaylasının şərqində, Ermənistanla sərhəd zonada yerləşən və eyni coğrafi ərazidə, tarixən birlikdə, həmçinin uzun illər 1861-ci ildə yaradılan Zəngəzur qəzasına daxil olmaları və

tarixi-mədəni, ənənəvi sosial-iqtisadiayrılmaz əlaqələri Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl inzibati rayonlarının vahid iqtisadi bir rayonda cəmləşməsini zəruri edir.

Ağdam, Xocavənd, Şuşa, Tərtər, Füzuli, Xocalı rayonları və Xankəndi şəhəri, həmçinin Qarabağ zonasına daxil olan Bərdə və Ağcabədi inzibati rayonları da aid olmaqla özünəxas zəngin əsrarəngiz təbiətə, tarixi-mədəni irsə malik olan qədim Qarabağ zonasının bərpa edilməsinin və sürətli inkişafının təmin olunması üçün yeni Qarabağ iqtisadi-coğrafi rayonunun da təşkili vacibdir.

İşğaldan azad edilmiş torpaqların Azərbaycanın iqtisadiyyatına reinteqrasiyası başqa iqtisadi rayonlar, habelə Gəncə–Qazax və Aran iqtisadi-coğrafi rayonları üzrə planlaşdırma işinin əlverşliliyinin, səmərəliliyinin yüksəldilməsi, iqtisadi idarəetmədə sürətliliyin təmin edilməsini və bu məqsədlə həmin iqtisadi-coğrafi rayonların tərkibinə də bir daha baxılmasını tələb edir.[17].

Birinci gündən Azərbaycan Silahlı Qüvvələri tərəfindən başladılan əks-hücum əməliyyatlarının nəticəsi olaraq Azərbaycanın bir neçə rayonunu, o cümlədən strateji əhəmiyyət kəsb edən başqa torpaqlar da azad olunmuşdur. Bu məqsədlə, 2020-ci il 29 sentyabrda Respublika Prezidenti tərəfindən “Azərbaycan Respublikasının azad olunmuş torpaqlarında müvəqqəti xüsusi idarəetmənin təşkil edilməsi haqqında” Fərman imzalanmışdır. Bu fərmandan irəli gələrək Azərbaycanın azad edilmiş ərazilərində, Azərbaycanın inzibati ərazi bölgüsünə uyğun olaraq, hər rayon üzrə ayrı-ayrı xüsusi idarəetməni təmin edən müvəqqəti komendantlıqlar yaradılmışdı. Komendantlıqların nəzdində də müvafiq olaraq dövlət qurumlarının nümayəndələrinin daxil edildiyi əməliyyat qərargahları yaradılmış və vəzifələri müəyyən olunmuşdur.

Prezidentı İlham Əliyev 2021-ci il fevral ayının ikisində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq olunması haqqında yeni sərəncam imzalayıb.Qarşıdan gələn illərdə dövlətimizin uzunmüddətli davamlı inkişaf etməsi üçün dövlət ,cəmiyyət və biznes üçlüyünün səmərəli əlaqəsi möhkəmləndiriləcəkdir. Ölkənin iqtisadiyyatda birbaşa rolunun bazaryönümlü

islahatlarla səmərəli və effektiv idarə edilməsi, özəl mülkiyyət sektorunun gücləndirilməsi, biznesə dost ölkə idarəetmə sistemi və yerli məhsulların xarici bazarlara çıxarılmasını artırmaq üçün ticarət rejimlərinin intensiv liberallaşdırılması iqtisadi yüksəlişin təməli olacaqdır.

Növbəti onillikdə dövlətin sosial-iqtisadi inkişafına dair aşağıdakı Milli Prioritetlər gerçəkləşdirilməlidir:

1. Artan rəqabət qabiliyyətli dayanıqlı iqtisadiyyat;
2. İnklüziv,dinamik və sosial ədalət prinsipinə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan resursları və yeni, müasir innovasiyalar məkanı;
4. İşğaldan azad edilmiş torpaqlara böyük qayıdış;
5. Təmiz, sağlam ətraf mühit və yaşıl artım ölkəsi.

(https://notemlaw.com/news-az/243-azrbaycan-2030-sosal-qtsad-nkafa-dar-mll-prortetlrn-tsdq-edlms-haqqinda-srncam-mzalanib.html)

İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Azərbaycan Respublikasının prezidenti və Ermənistanın baş naziri regionda kommunikasiyaların bərpa edilməsi , quru yol ilə yeni dəhlizin açılması kimi mövzular ilə bağlı bir sıra müzakirələr aparıb. Baş tutan bütün danışıqlarda ən vacib məsələ yəniki "Zəngəzur Dəhlizi"nin tez bir zamanda açılması diqqət mərkəzində olmuşdur. Zəngəzur dəhlizinin istifadəyə verilməsi dövlətimizə çox böyük iqtisadi töhfə verəcəkdir .Bunlara misal olaraq, Azərbaycan qardaş dövlət olan Türkiyyə ilə quru əlaqəsi yaranacaq,nəqliyyat xərcləri daha az olacaq və ən əsas qardaş dövlətlə quru əlaqəsinin olması hər iki dövlətin iqtisadiyyatına güclü müsbət təsir edəcək.

Naxçıvana quru dəhlizin açılması çox önəmli tarixi nailiyyətdir. Məhz Azərbaycan Respublikasının Prezidentinin təkidi ilə Naxçıvanla dövlətimizin qərb rayonları arasında əvvəllər olmayan yeni nəqliyyat əlaqəsi yaradılacaqdır. Yeni dəhlizin açılması ilə Naxçıvan Muxtar Respublikası blokadadan çıxarılır və yeni nəqliyyat damarı yaradılır. Bütöv Azərbaycan öz ayrılmaz parçası olan Naxçıvan MR ilə, bununla yanaşı Türkiyə Cümhuriyyəti ilə birləşir.

Azərbaycan, Türkiyə, İran, Rusiya və əgər istəyərsə Ermənistan da bu dəhlizdən istifadə bilər. Nəhayət, regionda yeni beştərəfli əməkdaşlıq platforması yaradılması üçün şərait yaranır. Bu əməkdaşlıq iqtisadi və nəqliyyat əlaqəsinin yaradılması üçün vacibdir. Diqqət etsək ki, Naxçıvanda bir çox növ məhsul istehsal edilir. Bu, onların həm ölkəmizin daxili bazarına, həm də xarici bazarlarına quru və ucuz yol ila çıxarılması deməkdir. Azərbaycan Respublikasının üzərindən beynəlxalq yükdaşımanın artması ölkəmizin gələcəkdə bu sahə üzrə də gəlir qazanması deməkdir (https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var).

# II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TƏBİİ EHTİYYATLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

## 2.1. Azad olunmuş ərazilərin bərpa və yenidən qurma işlərinin,eləcə də onların ölkə iqtisadiyyatına reinteqrasiya olmasını gücləndirmək yolunda infrastruktur layihələrin rolu

2020-ci il sentyabrın sonu başlayan il 44 günlük Vətən müharibəsində azad olunana torpaqlarda zəruri infrastrukturun yaradılması fərqli istiqamətləri əhatə edir. Yeni, müasir yol-nəqliyyat infrastrukturu azad edilmiş torpaqlara gediş-gəlişi və yüklərin təyinatı üzrə daşınmasını asanlaşdıracaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfər edərkən beynəlxalq hava limanında davam etdirilən tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Füzuli Beynəlxalq Hava Limanının təməli 2021-ci ilin yanvarında Prezident İlham Əliyevin şəxsən iştirakı ilə qoyulub. Limanda uçuş-enmə zolağının inşası 2021-ci ilin sonlarında tamamlanmışdır. Bundan əlavə , bir qədər bundan qabaq yenə də Prezidentin iştirakı ilə Zəngilanda beynəlxalq hava limanının təməlqoyma mərasimi olmuşdur (https://yeniazerbaycan.com/Iqtisadiyyat_e60014_az.html).

Azərbaycanın tarixi ədaləti bərpa edərək, öz torpaqlarını azad etməsi haqda məlumatlara keçməzdən öncə bu torpaqların işğal vaxtı haqda olan məlumatlara qısa nəzər salaq. Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min kvadrat kilometr ən məhsuldar ərazilərininc işğal edilməsinə, 9 yüz yaşayış məntəqəsinin, 150 min evin, 7 min ictimai binanın, 856 uşaq bağçasının, 928 kitabxananın, 694 məktəbin, 696 tibb müəssisələrinin, 45 məbədin, 9 məscidin, 40 min muzey eksponatlarının, 474 tarixi abidələr, muzeylər və sarayların, 6 min sənaye və kənd təsərrüfatı yönümlü müəssisələrinin, 160 körpünün, 2300 kilometr su kommunikasiyalarının, 2,6 min kilometr avtomobil yollarının, 2 min kilometr qaz kommunikasiyalarının, 15 min kilometr elektrik xətlərinin, 1 milyon hektar kənd təsərrüfatı üçün yararlı olan torpaqların, 280 min hektar meşələrin və 1,2 min kilometr irriqasiya sistemlərinin məhv edilməsinə səbəb olmuşdur. Mənfur düşmən ermənistanın hərbi təcavüzünün nəticəsi olaraq 20 min nəfər Azərbaycan

vətəndaşı həlak olmuş, 100 mindən çox yaralanmış, 50 min nəfərdən çox müxtəlif dərəcəli bədən xəsarətləri alaraq əlil olmuş, 4011 şəxs isə itkin düşmüşdür.

Erməni qəsbkarları işğal etdikləri torpaqlarda dövlətimizin mədəni irsini təşkil edən müxtəlif mədəniyyət obyektlərini amansızcasına məhv etmişlər. Ələ keçirdikləri torpaqlarda onlar 12 muzeyi, 6 rəsm qalereyasını, yüksək tarixi əhəmiyyətli 9 sarayı talan etmiş və yandırmışdılar. Nadir tarixi əhəmiyyəti olan 40 min muzey eksponatı və sərvəti talan edilmiş, 45 məbəd və 9 məscid təhqir olunmuşdur. Dağıdılan və tamamilə yandırılan 928 kitabxanada 4,6 milyon kitab və əlyazma nümunələri məhv olunmuşdur.

Azad edilmiş ərazilərdə daha bir yeni beynəlxalq hava limanının inşa edilməsi isə Laçın ərazisində nəzərə alınıb. Bu beynəlxalq hava limanları ayrı-ayrı müxtəlif magistrallarla inteqrasiya ediləcək. Nəhayət, dövlətimizin digər guşələrindən, o cümlədən xarici dövlətlərdən azad edilmiş torpaqlarımıza gediş-gəliş və yüklərin çatdırılması asanlaşacaq.

Ümumilikdə, azad edilmiş bölgələrdə yüksəksəviyyəli yol-nəqliyyat infrastrukturunun yenidən yaradılması ilə bağlı statistik göstərici kifayət qədər zəngindir. Ali Baş Komandan İlham Əliyev imzaladığı sərəncamlar ilə azad edilmiş bölgələrdə çoxlu sayda avtomobil yollarının qurulması məqsədi ilə böyük məbləğlərdə maliyyə vəsaitləri ayırmışdır. Hal-hazırda Əhmədbəyli-Füzuli-Şuşa yolunda, həmçinin Zəfər yolunda işlər sürətlə davam etdirilir. Nəzərinizə çatdıraq ki, İkinci Qarabağ müharibəsində qəhrəman hərbçilərimiz Azərbaycan xalqı üçün dəyərli olan Şuşaya Zəfər yolunun keçdiyi yerlərdən daxil olublar və misilsiz qəhrəmanlıqlar göstərərək Şuşa şəhəri azad ediblər. Uzunluğu 81 km olan Əhmədbəyli-Füzuli-Şuşa yolu 4 və 6 hərəkət zolağından ibarətdir. Zəfər yolunun ümumi uzunluğu isə 101 kilometrdir. Hər iki yol qırağınca tunellər, yeni körpülər inşa edilir , bütün lazimi infrastruktur yaradılır. Zəfər yolunun Xocavənd rayonuna düşən hissəsində yeni körpü inşa olunur. Quruçay üzərində 86 metrdən ibarət olan üçaşırımlı körpünün inşa edilir.

Azad olunan torpaqlarımızda görülən bütün bərpa-quruculuq işləri kimi, burada da infrastruktur layihələrin quruluşu intensiv sürət ilə aparılır və yol

istifadəyə verilənədək bu körpünün hazır olması nəzərdə tutulub. Ölkə Prezidenti İlham Əliyev bəhs edilən səfəri müddətində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltıdan keçən hissəsində inşa ediləcək tunelin təməlini qoyub. Bu tunelin texniki göstəriciləri yüksək səviyyədədir. Yol uzunu, ümumilikdə, iki tunel inşa olunacaq və onların hər biri ayrı-ayrılıqda ikizolaqlı olacaqdır. Tunellərin eni 12 metr, uzunluğu isə 530 metr təşkil edəcəkdir (https://yeniazerbaycan.com/Iqtisadiyyat_e60014_az.html).

Əvvəlki vaxtlarda olduğu kimi, azad olunan ərazilərə geri dönən insanların davamlı təhlükəsiz yaşayışı təmin olunmalı, bu bölgələr Azərbaycanın ən abad, dilbər guşələrindən birinə çevrilməlidir. 21-ci əsrdə müasir həyatın əsasını təşkil edən layiqli yaşayışın bərpa edilməsi üçün bütün sahələrdə yenidən quruculuğa nail olunmalıdır. Bu quruculuq işləri, stimullar əsasında, dövlət və özəl tərəfdaşlığının birgə inkişafı çərçivəsində reallaşdırılmalıdır. Yalnız belə olduğu halda azad edilən torpaqların Azərbaycanın Dövlətinin parlaq gələcəyinə tam inteqrasiya olunmasını təmin etmək mümkündür.

Bu prioritetin uğurla gerçəkləşdirilməsi üçün aşağıda göstərilən iki məqsədə nail olunmalıdır:

1. Daimi dayanıqlı məskunlaşma;
2. İqtisadi fəaliyyətə reinteqrasiya.

**Dayanıqlı məskunlaşma**. Azərbaycan Respublikasının tarixi ərazi suverenliyinin bərpa edilməsi əhalinin öz doğma ata-baba yurdlarına qayıdaraq yaşaması üçün yeni dövr yaratmışdır. İşğaldan azad edilmiş ərazilərdə əhalinin daimi dayanıqlı məskunlaşması təmin edilməlidir. Tamamilə təhlükəsiz, əlverişli həyat şəraitinin təşkil edilməsi vətəndaşların daimi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaqdır. Ona görə də yeni ərazilərdə layiqli yaşayış təmin olunmalı , müasir infrastruktur qurulmalı, müasir standartlara uyğun rahat həyat tərzi və xidmətlərə əlçatanlıq olmalıdır. Bu regionun iqtisadi ehtiyyatlarından səmərəli istifadə edilməklə, əhalinin məskunlaşma səviyyəsinin işğaldan öncəki səviyyəyə çatdırılmasına təminat olmalıdır.

**İqtisadi fəaliyyətə reinteqrasiya**. Azad olunmuş torpaqların dövlətin sosial və iqtisadi simasında tarixi mövqeyi bərpa olunmalıdır. Yeni ərazilər iqtisadi fəaliyyətin aparıcı hissələrindən birinə çevrilməli və Azərbaycanın başqa regionlarına uyğunlaşmış şəkildə inkişaf səviyyəsinə malik olmalıdır. İşğaldan azad edilmiş ərazilərin dayanıqlı inkişafı bu ərazilərdə iqtisadiyyatın ehtiyaclarının doğru ehtiyatlarla təmin olunmasından asılı olacaq, təbii resursun bol olması , qazanılan tarixi imic bu bölgələrə sərmayə cəlb edilməsinə şərait yaradacaqdır (https://president.az/az/articles/view/50474).

Möhkəm bünövrə üzərində qurulmuş yaşayışı təmin etməklə regionun ölkə üzrə iqtisadi fəaliyyətdə iştirak payını işğaldan əvvəlki vəziyyətə çatdırıb və onu intensiv artıra bilərik. Bu prosesdə lazımi stimullara əsaslanan özəl sektorun hərtərəfli təşviqi, o cümlədən dövlət və özəl tərəfdaşlığının birlikdə inkişafı vacibdir.

Ümumilikdə işğaldan azad edilmiş torpaqların bərpa edilməsi Prezident İlham Əlyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa aid Milli Prioritetlər"də əksini tapmışdı. Bu məsələnin sonrakı illərdə dövlətin sosial-iqtisadi inkişafına aid beş milli prioritetdən biri kimi müəyyən olunması dövlət rəhbərliyinin bu məsələyə yüksək səviyyədə diqqət verdiyini təsdiqləyir. Bu haqda cənab Prezidentin dediyi kimi, Azərbaycanın azad edilmiş torpaqların bərpa edilməsi ilə bağlı böyük planı vardır: "Biz demişdik ki, Azərbaycanın ata-baba torpaqlar işğaldan azad edildikdən sonra bu torpaqları tez bir zamanda sürətlə bərpa edəcəyik. Mən yaxın müddətdə demişdim ki, biz Qarabağ bölgəsi cənnətə çevirəcəyik və sözümdə dururam. Bu sözlərin yerinə yetirilməsi bizim hamımızdan asılıdır" (https://xalqqazeti.com/az/news/78552).

İşğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa quruculuq işlərinə başlanılmışdır ki, bu quruculuq işlərinin reallaşdırılması üçün 2021-ci ilidə dövlət büdcəsində 2,2 mlrd. manat vəsait ayrılmışdır. Həmçinin, azad olunmuş torpaqlarda quruculuq, abadlıq və bərpa işlərinin davamlı aparılması, o cümlədən

təhlükəsiz yaşayışın təmin edilməsi, fəaliyyətin və rifahın səmərəli artmasının dəstəklənməsi üçün Qarabağ Dirçəliş Fondu da yaradılmışdır.

Fondun yaradılmasının məqsədi işğaldan azad edilmiş torpaqlarda dayanıqlı məskunlaşmaq üçün yeni dünyanın standartlarına cavab verən həyatın təmin olunması, bu sahələrin hamısında bərpa və quruculuq işlərinin aparılması, həmçinin təhlükəsiz daimi yaşayışın təmin olunması və rifahın intensiv artmasının dəstəklənməsidir.

Bəli, dövlət büdcəsindən bura vəsait ayrılmışdır, bununla yanaşı, büdcədənkənar vəsaitlərin də buraya cəlb edilməsi böyük əhəmiyyət kəsb edir və beynəlxalq maliyyə institutlarının, xarici və yerli investorların həmçinin kommersiya banklarının bərpa-quruculuq işlərinə cəlb edilməsi zəruridir. Buna görə də Qarabağ Dirçəliş Fondunun yaradılması böyük əhəmiyyət kəsb edir. Fondun vəsaitlərinin fiziki və hüquqi şəxslər tərəfindən verilən ianələr və qanunla qadağan edilməyən başqa mənbələr hesabına inkişaf ertməsi azad olunmuş rayon, şəhər, qəsəbə və kəndlərdə quruculuq işlərinin inkişaf etməsi üçün geniş imkanlar açacaqdır.

Azad olunmuş torpaqlarda istehlakçıların davamlı, dayanıqlı və keyfiyyətli elektriklə təchiz olunması üçün irimiqyaslı bərpa və əsaslı təmir-tikinti işləri görülür. Bu işlərin görülməsində ağıllı konsepsiyalardan geniş istifadə edilir, Ağıllı Şəbəkə Konsepsiyası azad edilən digər torpaqlarda tətbiq olunur. Bu konsepsiya azad edilən başqa torpaqlarda olduğu kimi Suqovuşanda da tətbiq olunur. Konsepsiyaya görə, 36 kilovoltluq elektrik xətti izolyasiyalı kabel ilə çəkilmişdir. Belə xətlərdə itkilər ən aşağı səviyəyə enir, əlverişsiz sərt hava olduqda daha da dayanıqlıdır, buzlaşmaya qarşı çox dözümlüdür. Bu xətlərin keçdiyi yerlərdə mühafizə zolağları daha az olur, belə xətlərə texniki xidmət üçün xərclər minumum səviyyəyə enir. Suqovuşanın daxili şəbəkəsində 0,4 kv hava xətləri yenidən bərpa olunmuş, yeni SİP kabellər ilə əvəz edilmişdir.

Xüsusi ilə vurğulamaq lazımdır ki, Prezidentin azad edilmiş torpaqların "Yaşıl enerji" zonasına çevrilməsi üçün qoyduğu tələblərə görə , Suqovuşandakı 2 kiçik SES-də yenidən qurulmuş və bərpa işləri sona çatışdır. Ümumiyyətlə, azad

edilmiş torpaqların davamlı və keyfiyyətli elektrik ilə təmin olunması yolunda işlər uğurla gedir. Hal-hazırda Kəlbəcər, Qubadlı, Füzuli, Zəngilan, Cəbrayıl, Ağdam rayonlarnda ümumilikdə, 9 yarımstansiya və onlar birləşdiurən 115 kV-luq ötürücü xətlərinin tikinti işləri gedir.

Yenidən qurma və bərpaetmə prosesinin gedişatını müəyyən etmək üçün enerji, nəqliyyat, şəhərsalma və başqa istiqamətlər üzrə reallaşdırılan layihələri və qoyulan məqsədləri ayrı-ayrılıqda nəzərdən keçirək.

**Nəqliyyat sektoru**

Azad edilmiş torpaqların bərpası istiqamətində atılan başlanğıc addımlar avtomobil yollarının yenidən çəkilməsi oldu. İşğaldan azad edilmiş ərazilərin bərpasına aparan "Böyük Qayıdış" proqramının ilk mərhələsi azad edilmiş torpaqlarda yeni yol-nəqliyyat infrastrukturunun qurulmasıdır. İcra olunan nəqliyyat layihələri Cənub, Şimal və Şərq istiqamətlərindən Qarabağ zonasına hərəkət etmək üçün imkan yaradacaqdır. İcra olunan və ya icra edilməsi planlaşdırılan avtomobil yolları , hava limanı və dəmiryolu layihələrini ayrılıqda bir-bir incələyək:

**Talış və Suqovuşan avtomobil yolu**

İcraolunmasına başlanılan layihələrdən biri Talış və Suqovuşana gedən avtomobil yollarının təzədən bərpası oldu. Hələ döyüşlərin qızğın vaxtında bu yolların inşasına başlanıldı. Bu yolun Tərtərdən Suqovuşan kəndinə kimi olan hissəsi 21 kilometr, Suqovuşan kəndindən Talış kəndinə tərəf uzanan hissəsi isə 7,5 kilometrdir. İki böyük hərəkət zolağından ibarət yolun asfalt-beton örtüyünün eninin ölçüsü 9 metrdir və artıq bu yollar ikinci texniki dərəcəyə uyğun birinci mərhələ üzrə bərpa olunub. Sonrakı mərhələdə isə Çaylıdan Talışa kimi uzunluğu 8 km olan yolun, habelə Talış kəndindən Naftalana doğru 22 km məsafəyə malik təzə yolun inşa olunması da planlaşdırılır. Yuxarıda adını çəkdiyimiz avtomobil yollarının birləşdirilməsinin nəticəsi olaraq Tərtər şəhəri ilə birlikdə, alternativ olaraq Naftalandan da Suqovuşan və Talış istiqamətində getmək mümkün olacaqdır.

**Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu**

Digər yüksək səviyyədə əhəmiyyət kəsb edən avtomobil yolu isə Əhmədbəyli–Füzuli–Şuşa yoludur. 17 noyabrın 2020-ci ildə Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və yenidən tikintisi ilə bağlı tədbirlər barədə sərəncam imzalanmışdır. Bu sərəncama görə Prezidentin ehtiyat fondundan 50 milyon manat Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmışdır. Yolun uzunluğu 101.5 kilometr, eni isə 37.7 metr olması nəzərdə tutulur və ən geci 2022-ci ilin sonuna hazır olması qarşıya qoyulmuşdur. Bu yolu Füzulidə hava limanı ilə əlaqələndirmək üçün isə yolun 27-ci kilometrində hava limanına giriş və yol qovşağının inşa edilməsi 2022-ci ildə başa çatmışdır.

Yolun simvolik məna verən hissəsi "Füzuli-Şuşa" avtomobil yoludur. Füzuli-Şuşa yolu Topxana meşələrindən keçməklə Daşaltı kəndinə çatır, oradan isə Şuşaya birləşir. Buradan İsa bulağına dörd zolaq və altı zolaqdan ibarət yol da çəkilmişdir.. Füzuli-Şuşa yolu Azərbaycanın qəhrəman əsgərlərinin Qarabağın mərkəzinə, ən əsas da Şuşaya doğru canı,qanı bahasına irəlilədikləri yoldur. Elə bu səbəbdən də cənab prezident bu yolu "Qələbə Yolu" deyə adlandırmışdır.

**Toğanalı - Kəlbəcər avtomobil yolu**

Toğanalı-Kəlbəcər yolunun şimal istiqamətində çəkilişi davam edir. Qeyd etdiyimiz yol Göygölün Toğanalı kəndindən başalyıb, Murov silsiləsindən keçərək, Kəlbəcər, İstisu, Laçın istiqamətində inşa olunacaqdır. Bu yolun ümumi uzunluğu təqribi 190 kilometr hesablanmışdır. Toğanalıdan Kəlbəcər istiqamətində çəkilən hissəsi 74 kilometr, Kəlbəcər-İstisu istiqamətində çəkilən 28 kilometr, Kəlbəcərdən Laçın istiqamətinə isə 87 kilometr təşkil edir. Toğanalı-Kəlbəcər yolu iki və üç zolaqlı olması nəzərdə tutulub.

Bu layihənin 16 kilometrliyindən çox sərt yamaclı Murov silsiləsi başlanır və bu silsilənin bəzi hissələrində yolun keçəcəyi elə yerlər varki 3500 metr yüksəklikdən keçir. Bu isə öz növbəsində qış vaxtı bu yolda həm çətinliklər törədəcək, həm də təhlükə yaradacaqdır. Bu problemin həll olunması üçün tunellərin tikintisi davam etdirilir. Tikinti prosesi davam edən bu tunellərin ümumi

uzunluğu təqribi olaraq 10-12 kilometr olacağı nəzərdə tutlub. Tunellərdə hərəkət zolaqlarının 4-ə qədər çatdırılması planlaşdırılır.
(https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc)

Qeyd olunan avtomobil yolları ilə birə həm də Horadizdən Zəngilan rayonuna, oradan Qubadlı rayonuna və Laçına rayonuna kimi avtomobil yolunun çəkilməsi ilə bağlı da proses davam edir. Deməli qeyd olunan avtomobil yollarının çəkilməsinin nəticəsi olaraq həm şimal istiqamətdən, həm də cənubdan Laçın rayonuna və Kəlbəcər rayonuna aparan müasir standartlara cavab verən yol-nəqliyyat infrastrukturunun həyata keçirilməsi üçün işlər davam etdirilir.

**Dəmiryolları**

Hal-hazırda Avtomobil yolları ilə birgə bərpa və yenidən qurma prosesində dəmiryollarının da inşa edilməsi, yenidən qurulması işləri görülür. Nəzərdə tutulan dəmiryollarından biri də Bərdə-Ağdam dəmir yoludur və bu yol şərq tərəfdən Qarabağa doğru hərəkət etməyə şərait yaradır. Bu dəmir yolu xətti torpaqların işğalından qabaq istifadə olunmuş və 104 kilometr məsafəlik Yevlax-Xankəndi dəmir yolunun bir parçasıdır. Hal-hazırda bu yolun Bərdə rayonundan başlayaraq Ağdam rayonuna qədər uzanan 45 km-lik hissəsi tamamilə yenidən qurulur. Bu dəmir yolu xəttinin yenidən layihələndirmə və tikinti işlərinin ümumilikdə iki mərhələdə icra olunması nəzərdə tutulur. Birinci mərhələdə Bərdə-Təzəkənd istiqamətində 19 km, sonrakı mərhələdə isə Təzəkənd-Ağdam istiqamətdə 26 kilometrlik dəmiryolu yolu bərpa olunur. Bu yolun tikilib yenidən qurulması üçün dövlət tərəfindən 2021-ci ildə 5 mln manat ayrılmışdır.

Bununla yanaşı azad edilmiş torpaqlarda Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolu xəttləri də çəkiləcəkdir. Şuşa şəhərinin Qarabağ regionunda önəmli turizm və mədəniyyət mərkəzinə çevrilməsi planda tutulduğundan avtomobil yolu ilə birgə Şuşa şəhərinə dəmiryolu da çəkiləcəkdir. Başqa inşa olunması nəzərdə tutulan dəmir yolu xətti layihəsi isə Horadiz-Ağbənd xəttinin təzədən tikilməsidir. Horadiz-Ağbənd yolu indiki Ermənistan ərazisi olub tarixən Azərbaycanın olan

hissədən keçməklə Naxçıvan MR-ə gedən Zəngəzur dəhlizinin ən önəmli komponentlərindən biridir.

**Hava limanları**

Azad olunmuş torpaqların sürətli inkişafının təşkil olunması və turizm potensialının tam olaraq gerçəkləşdirilməsi məqsədi ilə hava limanlarının da tikilməsi nəzərdə tutulur. Birinci hava limanı layihəsi Beynəlxalq Füzuli Hava Limanının layihəsidir. 14 yanvar 2021-ci ildə təməli qoyulan Füzuli hava limanı 16 oktyabr 2021-ci ildə Azərbaycan və Türkiyyə Respublikalarının liderlərinin şəxsən iştirakı ilə istifadəyə verilmişdir. Bu beynəlxalq hava limanı müasir standartlara cavab verən infrastruktur ila təchiz olunmuşdur. Limanın uçuş-enmə zolağının ümumi uzunluğu 2,8 kilometrdir. Yeni hava limanının ən önəmli məqsədi xarici qonaqların və xarici turistlərin işğaldan azad olunmuş torpaqlara, ən əsas da Şuşaya gəlməsini təmin etməkdir. Qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, buradan Füzuli-Şuşa avtomobil yolu ilə çox rahat Şuşaya gedə biləcəklər. Bununla yanaşı işğaldan azad olunmuş torpaqlarda iki hava limanın inşası nəzərdə tutulmuşdur. Bu hava limanlar Zəngilan rayonun və Laçın rayonunun ərazisində tikiləcəkdir.

**Enerji sektoru**

Ən əsas məqsəd işğaldan azad olunmuş ərazilərdə yeni, müasir standartlara cavab verən kompleks enerji sisteminin yaratmaq və dövlətin ümumi enerji sisteminə inteqrasiya etməkdir. 2021-ci ildəbaşlanğıc olaraq "Azərenerji" və "Azərişıq" Şuşaya iki elektrik enerjisi xətti çəkildi. Bununla yanaşı "Azərişıq" tərəfindən azad olunmuş torpaqlardac xüsusi dövlət əhəmiyyətli infrastrukturun elektrik enerjisi ilə təcili təmin edilməsi məqsədi ilə "Azərişıq Qarabağda" yeni layihəsi reallaşdırılır.

Bu proseslər ilə bərabər işğaldan azad olunmuş torpaqlarda əvvəllər qurulmuş SES-lərin da bərpa edilməsi və yenidən qurulması işləri həyata keçirilir. İkinci Qarabağ müharibəsi dövründə Ermənilər azad edilən torpaqlarda mövcud olan kiçik SES-ləri məhv edərək bütün işə yararlı olan avadanlıqlarını söküb aparıblar. Apara bilmədiklərini isə mənfur xislətlərinə uyğun olaraq

yandırıb və ya partladıblar. Nəhayət, yekun olaraq azad olunmuş torpaqlarda olan su elektrik stansiyalarıı yararsız hala düşmüşdür. Onun üçün də ilk olaraq o stansiyaların bərpası prosesi həyata keçirilir.

Bu stansiyalardan biri, Laçın rayonunda yerləşən və 8 meqavat gücə sahib olan "Güləbird" su elektrik stansiyası artıq istismara verilmişdir. 14 fevral 2021-ci il tarixdə Prezident İlham Əliyev SES-in açılışını etmişdir. Güləbird stansiyası təxminən 7-8 min nəfərin elektrik enerjisi ilə təmin olunmasına şərait yaradacaqdır. Bu stansiyasında istehsal edilən enerji Qubadlının Xanlıq kəndini, Laçının cənub bölgəsini və buraya yaxın yerlərdə olan başqa infrastruktur layihələrini elektrik ilə davamlı təmin edəcəkdir. Güləbird SES-nin azad edilmiş torpaqlarda infrastruktur layihələrin reallaşdırılması və nəzərdə tutulan başqa işlərin gerçəkləşdirilməsi baxımından böyük əhəmiyyətə sahibdir.

Başqa su elektrik stansiyalarına gəldikdə isə Suqovuşandakı "Suqovuşan-1" və "Suqovuşan-2" su elektrik stansiyalarında da əsaslı yenidən qurma işləri aparılır, Cəbrayılda yerləşən "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikinti işləri həyata keçirilir və Füzulidəki "Şükürbəyli" yarımstansiyasının da sıfırdan tam bərpa olunması nəzərdə tutulur. Həmçinin azad olunmuş torpaqların davamlı təbii qaz ilə təmin olunması ilə bağlı tərtib edilmiş proqram çərçivəsində SOCAR tərəfindən uzunluğu 416 km olan qaz xəttinin çəkilib istismara verilməsi də nəzərdə tutulur (https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc).

İşğaldan azad olunmuş torpaqlarda reallaşdırılacaq enerji siyasətinin ən önəmli məqsədi isə bu bölgələri "Yaşıl Enerji" zonasına çevirməkdir. Elə buna görə də işğaldan azad olunmuş torpaqlarda energetika sahəsində görülməli işlərdə bərpaedilən enerji qaynağlarından istifadəyə və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiq olunmasına üstünlük verilir. Öz növbəsində bu proses isə enerji resurslarından istifadənin daha da səmərəli istifadə olunmasına şərait yaradacaqdır. Su elektrik stansiyalarının əsaslı formada bərpası da bu məqsədlərin həyata keçirilməsinə şərait yaradacaqdır.

İşğaldan azad olunmuş torpaqlarda bərpa edilən enerji potensialının düzgün qiymətləndirilməsinə gəldikdə isə onu vurğulamaq yerinə düşər ki, Laçın və Kəlbəcərdə külək enerjisinin əldə olunması üçün böyük potensial vardır. Zəngilanda, Cəbrayılda isə daha çox günəş elektrik stansiyalarının qurulması üçün potensiyal vardır. Beynəlxalq Bərpaedilən Enerji Agentliyinin ilkin təxmini qiymətləndirilməsinə görə, işğaldan azad olunmuş torpaqlarda 4000 meqavatdan çox Günəş enerjisi, 500 meqavata qədər külək enerjisi potensialı vardı. Bu ərazilərdə yaşıl enerji layihələrinin reallaşdırılması üçün xarici investorlarla danışıqlar üzərində işlər aparılır.

Nəhayət, müharibədən sonrakı dövrdə Qarabağın və ətraf rayonların inkişaf edilməsi istiqamətində irimiqyaslı layihələr aparılır. Deməк olar ki, konkret müqavilələr də imzalanmış və işğaldan azad edilmiş ərazilərin bərba edilməsi və yenidən qurulması prosesinə başqa-başqa xarici dövlətlərin marağı da artmaqda davam edir. Dövlətimizin sevincini bölüşən və azad olunmuş torpaqların yenidən qurulmasına töhfə vermək istəyən dost ölkələr, qardaş ölkələr də mənfur erməni vandalizminin izlərini təmizləməyə hazır olduqlarını deyirlər. Azərbaycana səfərə gələn Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edın vaxt bildirmişdir ki, Azərbaycan xalqı Qarabağdan çıxmaq məcburiyyətində qalan vaxtlar heç yeri dağıtmadılar: “Lakin ermənilər hər bir yeri dağıtdılar. Bu dağılan ərazilər Azərbaycan və onun qardaş dövlətinin yardımı ilə yenidən inşa ediləcəkdir. Birlikdə bu torpaqları yenidən inşa edəcəyik, quracağıq və yeni dövrün Qarabağın ortaya gətirəcəyik”.

Bir sözlə, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması bərpa və quruculuq işləri həyata keçirən dövlətimiz üçün yeni imkanlara şərait yaratmışdır. Xalqımız bizə dost və qardaş dövlətlər ilə birlikdə bu tarixi missiyanı uğur ilə başa vuracağıq (https://xalqqazeti.com/az/news/78552).

Məlumumuzdur ki, azad edilmiş torpaqların bərpa edilməsi və yenidən qurulması istiqamətində hökumət tərəfindən müvafiq işlər görülür, davamlı olaraq fəaliyyətlər həyata keçirilir. İşğaldan azad edilmiş torpaqlara böyük qayıdışın təmin olunması üçün bütün şəhər və kəndlərin pərpa edilməsi və yenidən

qurulması, bu torpaqlarda müasir infrastrukturların təşkil edilməsi məqsədi ilə 2021-ci ildə dövlət büdcəsindən 2,2 milyard manatdan çox vəsait ayrılmışdır. Bu vəsait hesabına azad olunmuş ərazilərdə elektrik enerjisinin fasiləsiz təşkili, təbii qaz, yol, su, rabitə, mədəniyyət, təhsil, səhiyyə, mənzil-kommunal və başqa lazımi infrastrukturların, o cümlədən mədəni-tarixi abidələrin bərpa edilməsi və yenidən qurulması, yeni yaşayış evlərinin tikilməsi istiqamətində də danılmaz zəruri addımlar atılır.

O da aydındır ki, ölkə investisiyaları ilə birgə , xarici və yerli sərmayələrin cəlb olunması ilə azad edilən torpaqlarda sosial və iqtisadi infrastrukturun yenidən təşkil edilməsi, əhalinin məşğulluğunun təmin olunması yönündə işlərin proseslərin həyata keçirilməsi prioritetdir. Yerli və xarici ekspertlər vurğulayır ki, azad olunmuş Azərbaycan torpaqlarının böyük iqtisadi potensialı , təbii ehtiyatları vardır. Bu da azad edilmiş torpaqlaraa yerli və xarici investisiyaların cəlb edilməsi, bu fonda əhalinin məşğulluğunun təşkil olunması baxımından vacib əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, işğaldan azad edilmiş torpaqların iqtisadi potensialının yüksək qiymətləndirilməsi dünya çapında da qəbul edilir. Misal üçün, işğaldan azad olunan rayonlar işğaldan əvvəlki dövrlərdə üzümçülük, pambıqçılıq, taxılçılıq və heyvandarlıq sahəsində ölkə və region üzrə xüsusi paya malik olmuşdur.

İqtisadçı və alim, Azərbaycan Respublikasının Milli Məclisinin iqtisadiyyat, sənaye, sahibkarlıq komitəsinin üzvü olan Vüqar Bayramov bildirmişdir ki, işğaldan azad edilən torpaqlara investisiyaların cəlb edilməsi dövlətimiz qarşısında duran ən önəmli, ən zəruri prioritetlərdən biridir**.** Bu baxımdan, sosial sığorta ödənişlərindən tutmuş, qaz, elektrik, su təchizatına kimi bütün sahələrdə güzəştlərin tətbiq edilməsi işğaldan azad edilən torpaqlarac investisiyaların cəlb olunması üçün çox vacib şərtdir. Qeyd olunan güzəştlər xarici investorların da bu bölgələrə gəlməsini stimullaşdıracaq. Ölkə olaraq, xalq olaraq biz yalnız işğaldan azad edilən torpaqların bərpası deyil, həmçinin də oradakı iqtisadiyyatın dövlət iqtisadiyyatına inteqrasiya etməsinə nail olmalıyıq. Bu səbəbdın də stimullaşdırıcı addımların atılması lazımi şərtlərdəndir

(https://musavat.com/news/hokumet-azad-olunan-erazilere-investor-celbinin-de-agilli-yolunu-tapa-bilecekmi_852217.html).

İşğaldan azad edilən torpaqlardakı bərpaetmə işlərinə xarici investorların marağı da aşkar hiss olunmaqdadır. Misal üçün , Türkiyə Cumhiriyyəti, Cənubi Koreya Respublikaı, İtaliya Respublikası, İsrail və digər respublikaların şirkətləri bu torpaqlarda işləmək istəklərini açıq bəyan ediblər. Cəbrayıl rayonunda yaradılan Araz Vadisi azad iqtisadi zonası, Ağdamdakı sənaye parkı tipli təsisatlar xarici və yerli şirkətləri cəlbedə bilər. İşğaldan azad edilən torpaqlara investisiya yatırmaq istəyən şirkətlərə maliyyə və bank fəaliyyəti, o cümlədən idxal prosesi və başqa istiqamətlərdə də böyük güzəştlər edilməsi nəzərdə tutulur. Mütəxəssislərin çoxu hesab edirlər ki, bu güzəştlərlə birgə işğaldan azad edilən torpaqlarda, həmçinin də bütövlükdə dövlət boyu ədalət və azadlığa sökənən məhkəmə sisteminin formalaşması, yüksək səviyyədə təminat verilən mülkiyyət hüququ investisiya axınını cəlb etmək üçün ən önəmli şərtlərdən biridir.

Azad olunmuş torpaqların aqrar istehsal və ixrac potensialı yetərincə böyükdür. Xüsusi ilə də Şuşa , Kəlbəcər, Füzuli və Zəngilan rayonlarında böyük turizm potensialı vardır. Yaxın zamanlarda Araz çayının üstündə “Xudafərin” və “Qız qalası” adlanan iki böyük SES-in inşası planlaşdırılıb və bununla azad olunan torpaqların elektrik enerjisi ilə davamlı təmin olunmasına şərait yaranacaq. Yerli elektrik enerjisi tələbatının təmin olunması və dövlətin enerji ixrac potensialının intensiv artması baxımından bu SES-lərin hər ikisi yüksək əhəmiyyət kəsb edir. Təbii resursların, faydalı qazıntı işlərinin aparılması investisiyaların cəlb edilməsi baxımından çox böyük perspektiv vəd edir. Azərbaycanın qeyri-neft ixrac dövriyyəsində son illərdə qızıl önəmli yer tutur (https://www.baki-xeber.com/siyaset/116274.html).

Dünya bazarlarında qızılın qiymətinin bahalaşması və bu sahədəki şirkətlərin son istehsal texnologiyalarına sahib olması onu əsaslandırır ki, azad olunmuş torpaqlarda qızıl yataqlarının istismar edilməsi yaxın dövrlərdə dövlətimizin iqtisadiyyatına böyük töhfə verəcəkdir. Azərbaycan Respublikasının ÜDM-də aqrar sektorun və turizm sektoruna düşən pay az olsa da, qeyd olunan sektorlar

məşğulluğa yetərincə təsir göstərə bilən sahələrdir. Bu səbəbdən də əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi üçün böyük perspektiv yaranır. irimiqyaslı bərpaetmə fəaliyyətləri və təzə infrastrukturun qurulması tikinti sahəsi üçün yeni imkanlar vəd edir. Qeyd olunanların hər biri xarici investorları da maraqlandırır.

Ukrayna dövlətinin Azərbaycandakı səfiri Vladislav Kanevski qeyd etdiyimiz mövzuda maraqlı açıqlamalar verərək, Ukraynanın da azad olunan bölgələrdə investor kimi çıxış etmək məqsədini bəyan edir. Azərbaycan Respublikasını Cənubi Qafqazda Ukraynanın əsas tərəfdaşı olduğunu vurğulayan diplomat Azərbaycan Respublikasının ərazi bütövlüyünü tam şəkildə tanıdıqlarını, dəstəklədiklərini, azad olunmuş bölgələrin bərpa-quruculuq işlərində kömək etməyə hazır olduqlarını vurğulayıb: “Ölkələrimiz iqtisadi baxımdan tamamilə bir-birini tamamlayır”.

Fransa Respublikasının Avropada Təhlükəsizlik və Perspektiv İnstitutunun prezidenti Emmanuel Dupuy işğaldan azad olunan torpaqların xarici investorların diqqətini çox cəlb etdiyini qeyd edib. Ekspert vurğulayır ki, ölkəmizin işğaldan azad edilmiş torpaqları regionun inkişafına bir başa böyük töhfə verəcək. O, işğaldan qurtulmuş ərazilərdə başlamış yenidənqurma və bərpa işlərinə sərmayə qoyacaq dövlətlərin çox olacağını bildirib: "İşğaldan azad olunmuş ərazilərin regionun iqtisadi inkişafında bir başa böyük rolu olacaq. Bu prosesdə təkcə Azərbaycan deyil, regionun başqa dövlətləri, sərmayə yatıran və bərpa prosesində iştirak edən bütün ölkələr də yararlanacaqdır".

Bu mərhələdə əsas 3 seçim real görünür. Birinci növbədə, Türkiyə və İsrail şirkətləri önəmli sərmayə qoyan şirkətlər ola bilərlər. Başqa bir mümkün seçim isə birinciyə zidd yox, digər xarakter daşıyır. Bu da Çin Xalq Respublikasının şirkətləridir. Çinin sərmayəsi Gürcüstan və Azərbaycan dövlətlərini birləşdirən layihələrin həyata keçməsi baxımından da önəmli maraq kəsb edir. Bu layihə işlərində indiyə qədər qıraqda qalan Ermənistan da cəlb oluna bilər. Üçüncü isə İran İslam Respublikasından gələn sərmayədir. Yəni ki, İranın XİN Məhəmməd Cavad Zərifin NaxçıvanMR-ə səfəri zamanı Türkiyə-İran-Əfqanıstanı birləşdirəcək

olan dəmir yolu xətdinə qoşulmaqda İran İslam Respublikasının nə dərəcədə maraqlı olduğunu göstərdi. Bu layihələrin hamısı Qafqazın iqtisadiyyatının inkişafına müsbət təsir edəcək və beləliklə, İran İslam Respublikası üçün də çox önənmli faydası olacaqdır.

Beləliklə, sonuncu sırada dünyanın başqa dövlətləri dayanır ki, bu qrupa da Fransanı, ABŞ-ı ümumilikdə Avropanı daxil eləmək ola. Dupuy Azərbaycan torpaqlarının işğaldan azad olunmasının Qafqazın birləşməsinin mümkünlüyünü gücləndirdiyini , Avropa və Asiya arasındakı körpü rolunun önəmini daha da möhkəmləndirdiyini vurğulayıb. Dağlıq Qarabağın azad olunmasından sonra artıq geriyə heç bir yol yoxdur. Hal-hazırki vəziyyət gələcəyə böyük perspektivlər vəd edir. İlk növbədə Qafqazdan keçərək Asiya və Avropanı birləşdirən yeni yolların çəkilməsi ən vacib layihələrdən biridir. Regionun üçünzəruri ehtiyaclarını nəzərə alıb Qafqa və yaxud Cənubi Qafqaz birliyi adı altında yenidənqurma və bərpa işləri görmək üçün tarixi zaman çatıb (https://www.baki-xeber.com/siyaset/116274.html).

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının yeni başçısını videoformatda qəbul edərkən gələcəkdəki planlar haqda fikirlərini söyləməklə, bankın ölkə iqtisadiyyatının şaxələnməsində Azərbaycan Respublikasını dəstəklədiyi üçün, dövlətimizin enerji layihələrinə, xüsusən də Cənub Qaz Dəhlizinə bir mlrd. avro məbləğində TAP- a göstərdiyi dəstəyini vurğulamaq ilə təşəkkürünü bildirərək qeyd etdi ki, Azərbaycanın Respublikasının dövlət şirkətləri tərəfindən icra edilən 13 infrastruktur layihədən12-si tamamilə uğurla başa çatıb. Sonuncusu isə yekunlaşmaq prosesindədir. Ümumdünyada olan Pandemiya olmasına baxmayaraq qeyri-enerji sənaye sahəsi üzrə istehsalatda artım vardır. Azərbaycanda neft satışından əldə edilən vəsait hesabına özəl sektor, ümumi qeyri- neft sənayesi dəstəklənmişdir, intensiv səviyyədə inkişaf etmişdir. Hal-hazırda əsas məqsədimiz azad olunan torpaqların bərpa edilməsidir. Bir milyondan artıq keçmiş məcburi köçkünlər üçün layiqli, rahat həyat şəraiti ilə təmin etmək üçün 10 min kvadrat kilometrlik böyük bir sahənin yenidən bərpası prioritet istiqamətdir.

Ölkəmizdə hava limanı, avtomagistrallar inşa edilir, dəmiryolu xəttləri qurulur. İlin sonuna qədər  Qarabağ ərazisinin demək olar ki, çox hissəsi  enerji təchizatı ilə təmin olunacaq. O cümlədən  cənab Prezident İlham əliyev  azad olunmuş torpaqları "Yaşıl enerji" zonası elan etdiyini, işğaldan azad olunmuş zonalarda bərpa edilən yeni enerji mənbələri baxımından çox böyük potensial olmasından bu ərazilərdə bu resurslardan istifadə olunacağını bildirmişdir. Həmçinin cənab  Prezident  Azərbaycan və regionun inkişaf prosesində  yeni eranın başladığını, regional əməkdaşlıq baxımından  yeni imkanların olduğunu, ölkəmizin əməkdaşlığa, qonşularımızla düzgün, dürüst formada işləməyə hazır olduğumuzu xüsusilə qeyd edib (https://www.mdu.edu.az/az/1329-b-y-k-tarikhi-z-f-r-v-az-rbaydzan-n-dayan-zhl-inki-af-n-n-t-min-edilm-sind-investisiya-dz-lbedidziliyinin-prioritet-istizham-tl-ri.html).

## 2.2. Ölkə iqtisadiyyatının gücləndirilməsi  və dayanıqlığının möhkəmləndirilməsi  yolunda azad olunmuş ərazilərdə dağ-mədən və emal sənayesi, kənd təssərrüfatı və turizmin potensialının qiymətləndirilməsi.

Post-konflikt dövründə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Qarabağ  regionun  iqtisadi inkişafının  perspektivləri çox ciddi şəkildə analiz edilir. İİTKM-in rəhbəri, iqtisad elmləri doktoru Vüsal Qasımlı müsahibəsində  Qarabağın sənaye potensialı haqda açıqlama vermişdir. Vüsal Qasımlının  sözlərinə əsasən, azad olunmuş ərazilərdə dağ-mədən, metallurgiya, ərzaq istehsalı,emal sənayesi, meşə sənayesi, elektrik enerjisi istehsal  və kreativ sənayenin inkişafı ilə bağlı  imkanları var (http://interfax.az/view/817546/az).

İİTKM-in hesablamalarına görə işğaldan azad edilmiş 250 min hektar ərazinin, keçmiş təmas xəttinin yaxınlığında olan istifadə edilməmiş 120 min hektar torpağın post-konflikt dövründən sonra  əkin dövriyyəsinə cəlb edilməsi imkanları vardır və bu imkanlardan hal-hazırda istifadə edilir. Qeyd edilənlər Qarabağ zonasında emal sənayesinin, ərzaq sənayesinin sürətli inkişafını əsaslandıracaqdılr (http://interfax.az/view/817546/az).

İşğaldan azad olunmuş ərazilərdə 155 növ müxtəlif faydalı qazıntı mənbələri, o cümlədən: beş qızıl, altı civə, iki mis, bir qurğuşun və sink, on doqquz üzlük daşı, on mişar daşı, dörd sement xammalı, on üç fərqli növ tikinti daşları, bir soda istehsalı üçün xammal, iyirmi bir pemza və vulkan külü, on gil, doqquz qum-çınqıl, beş tikinti qumu, doqquz gips, anhidrid və gəc, bir perlit, bir obsidian, üç vermikulit, on dörd əlvan və bəzək daşları yataqları vardır. Azad edilmiş ərazilərdəki faydalı qazıntılar Mehmana, Dəmirli, Canyataq-gülyataq, Şorbulaq, Şuşa, Turşsu, Xocalı, Zərinbax, Xankəndi, Ediş, Söyüdlü, Ağduzdağ, Ağyataq, Levçay, Kilsəli, Keçəldağ, Yuxarı İstisu, Aşağı İstusu, Qoturlu, Çilkəz, Narzanlı, Hoçaz, Laçın, Yuxarı Əkərəçay, Minkənd, Hacılı, Xanlıq, Vejnəli, Bartaz, Oxçuçay, Şərifan, Tuluz, Qaracalı, Çaxmaxçay, Göyərçin-Veysəlli, Ağtəpə, Cəfərabad, Şahverdilər, Dövlətyarlı, Diləgərdi, Kürdmahmudlu, Şahbulaq, Gülablı, Boyəhmədli, Şahbulaq, Ağdam, Xaçınçay və s. yataqlarda aşkar olunmuşdur.Qeyd etdiyimiz yataqlarda sənaye ehtiyatları təsdiq olunmuş 1323 ton qızıl, 18432000 m3 üzlük daşı, 37300 ton qurğuşun, 1526000 ton gəc, 4473000 m3 perlit, 189 mln. m3 mişar daşı, 23243000 m3 gil, 57965000 ton tikinti daşı, 96987000 ton qum-çınqıl, 18985 ton civə, 2144000 m3 pemza, 12983300 m3 soda istehsalıdan ötrü əhəngdaşı, 147108000 ton sement üçün xammalı və s. vacib əhəmiyyətli hesab edilən faydalı qazıntılar müəyyən edilmişdir.

Bölgədə qiymətli və nadir çox faydalı qazıntı yataqları aşakr edilmişdir. Əhəmiyyəti yüksək qiymətləndirilən mis-sink filizlərinin potensialı Kiçik Qafqazın şərqindəki Mehmana yataqlarında vardır. Burada istismar üçün hazır olan bu filiz ehtiyatları bir vaxtlar müəyyən edilmişdir. Kəlbəcər rayonunda olan Şorbulaq və Ağyataq civə ehtiyyatları sənaye əhəmiyyəti yüksək qiymətləndirilir. İşğaldan azad edilmiş torpaqlarda Azərbaycanın sənayesi və tikintisi üçün çox əhəmiyyətli olan fərqli-fərqli növ tikinti materialları zəngindir. Bu materialların əsas ehtiyatları Ağdamda yerləşən Çobandağ (əhəng potensialına görə 140 mln. ton və gillər 20 mln. ton ), Şahbulaq (25 mln. ton gil), Boyəhmədli (45 mln. ton gil) və başqa yataqlardadır. Bununla yanaşı, Xankəndində böyük həcmdə tikinti daş yataqları, Harovda isə mərmər yataqları vardır.

Aşağıda verilən cədvəldə işğaldan azad edilmiş rayonlar üzrə ayrı-ayrılıqda hansı növ faydalı qazıntıların olduğu göstərilir:

**Cədvəl 2: İşğaldan azad olunmuş rayonlar üzrə ayrı-ayrılıqda faydalı qazıntılar**

| **Rayonun adı** | **Faydalı qazıntı növü** |
|---|---|
| Ağdərə | Qızıl, mişar daşı, , gəc, qurğuşun, sink, mis, |
| Şuşa | Üzlük daşı, tikinti daşı, gil, |
| Xocalı | Gil, qum-çınqıl, üzlük daşı, |
| Xocavənd | Tikinti daşı, üzlük daşı, |
| Kəlbəcər | Qızıl, civə, perlit, mişar daşı, gil, üzlük daşları qum-çınqıl, tikinti daşları, , əlvan daşlar (obsidian, pefritoid, oniks, listvenit) |
| Laçın | Civə, üzlük daşı, mişar daşı, tikinti daşı, gil, qum-çınqıl, vulkan külü, pemza, vermukulit, jad |
| Qubadlı | Mişar daşı, tikinti daşı, üzlük daşı, gil, əlvan daşı |
| Zəngilan | Qızıl, gümüş, qum-çınqıl, əhəng daşı, üzlük daşı, gil, tikinti daşı, |
| Cəbrayıl | Mişar daşı, sement, gil, qum, sement, gəc, sement, kips, ahhidrid, vulkan külü, pemza, əlvan daşlar (xalsədan,yəşəm) |
| Füzuli | Mişar daşı, qum-çınqıl, gil |
| Ağdam | Mişar daşı, sement xammalı, üzlük daşı, gil, qum-çınqıl |

**Mənbə:** http://interfax.az/view/817974/az

Təbii ki yuxarıda göstərdiyimiz faydalı qazıntılar ilə bağlı olan məlumatlar nisbi xarakter daşıyır və sonrakı mərhələdə yataqların qiymətləndirilməsi aparılmalı, köhnə sovet dövrünə aid bütün rəqəmlər dəqiqləşdirilməlidir. Diqqət edilməlidir ki, ötən 30 il ərzində torpaqlar talançılığa məruz qalmışdır. O cümlədən, yeni müasir qiymətləndirmə üsulları meydana çıxmışdır və azad edilmiş ərazilərin faydalı qazıntıları ila bağlı təzə geoloji xəritələr hazırlanmalıdır.

Hal-hazırda dövlətimizin nəzarətində olan yataqların potensial ehtiyyatları yenidən qiymətləndiriləcək və bununla əlaqədar dövlət qurumlarının vasitəsi ilə qeyri-qanuni hasil olunmuş təbii sərvətlərin istifadəsi nəticəsində ölkəmizə vurulmuş ziyanın miqdarının hesablanması işləri həyata keçiriləcəkdir. “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti fəaliyyətə başladığı vaxtdan qanunsuz

istismar olunan faktlarına xüsusi ilə diqqət ayırıb. Qapalı Səhmdar Cəmiyyət tərəfindən azad olunmuş torpaqlarda əlvan metalların qanunsuz hasilatını təşkil eləyən və icra edən bir sıra Ermənistan şirkətlərinin, Avropa şirkətlərinin törətdiyi əməllərinə hüquqi qiymətin verilməsi üçün müvafiq araşdırmalar aparılmışdır.

"AzerGold" Qapalı Səhmdar Cəmiyyət tərəfindən azad edilmiş torpaqların bərpa edilməsi və inkişaf etməsi konsepsiyasına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər nazirliyi, İqtisadiyyat nazirliyi bir yerdə əlvan metal yataqlarının gələcəkdə istismar edilməsi ilə bağlı müvafiq araşdırmalar görməkdədir.

Şübhəsiz ki, azad olunan torpaqlarımızda əlvan metal ehtiyatlarının potensialı Azərbaycanın dağ-mədən sənayesinin, metallurgiya sənayesinin gələcəkdəki inkişafında mühüm rol oynayacaq. Sənaye əhəmiyyətli dərəcədə proqnoz resurslara malik olan çoxsaylı qızıl, mis, gümüş, civə və başqa təbii sərvətlərin qazıntı yataqlarının istismar edilməsi azad olunmuş torpaqlarda sənayeni bir daha təşkil etməyə, ölkə iqtisadiyyatının əksər sektorlarının inkişafını sürətləndirməyə, yerli əhalinin yeni iş yerləri ilə təmin edilməsinə, o cümlədən bərpa ediləcək şəhər və kəndlərin sürətli inkişafına çox dəstək olacaq (https://azertag.az/xeber/Isgaldan_azad_edilen_erazilerde_elvan_metal_ehtiyatlarinin_potensiali_dag_meden_senayesinin_inkisafinda_boyuk_rol_oynayacaq-1723153).

Azad olunan torpaqlar çox böyük həcmdə iqtisadi potensiala sahibdir. Bu torpaqlar kənd təsərrüfatının baxımından çox vacib ərazilər hesab edilir. Azad edilən torpaqlarımızın potensialı, xammal, təbii ehtiyatlar və yüksək məhsuldarlığa sahib torpaq sahələrinin həcminə diqqət etsək, bərpaetmə mərhələsindən sonra ən qısa bir dövrdə həmin bölgələrimizdə məhsul istehsalının 10 dəfəyə qədər artacağı gözlənilir.

Burada əsas məqsəd aqrar sektorun inkişaf etməsi, təşviqedici tədbirlərin icra olunmasına nail olmaqdır. Füzuli rayonu işğaldan öncə böyük aqrar potensiala və sənaye potensialına malik olan rayon idi. Həm üzüm istehsalına, həm taxıl istehsalına, həm də pambıq istehsalına görə 20-ci əsrin 80-ci illərində ölkənin öndə olan rayonlarından biri idi. Eyni tendensiya Cəbrayıl rayonunda və Zəngilan rayonunda da müşahidə olunurdu. Eyni zamanda, Kəlbəcər, Laçın, Qubadlı,

Ağdam, rayonları da çox yüksək məhsuldarlığa sahib torpaqlara malikdir. Bu torpaqların məhsuldarlığını tez bir zamanda bərpa etmək mümkündür və olunacaqdır (https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var).

Kənd Təsərrüfatı Nazirliyi yenilikcə qiymətləndirmələr aparır. Azad edilən torpaqlar sonrakı mərhələdə ölkə iqtisadiyyatına, xüsusi ilə dövlətin ərzaq təminatına və ərzaq təhlükəsizliyinə xüsusi ilə töhfə verəcəkdir. Ölkəmizdə meşə zolağının 25 faizi azad edilmiş torpaqların payına düşür, su ehtiyatlarımız yarıya qədəri azad olmuş torpaqlardadır. Bununla yanaşı o torpaqlarda kənd təsərrüfatı üçün çox yararlı torpaqlar var. Qarabağın azad edilməsi sonrakı mərhələdə ölkədə kənd təsərrüfatı məhsullarının sürətlə artmasına, Azərbaycanda ərzaq təhlükəsizliyinə qarşı güclənməsinə, həmçinin Azərbaycanın qeyri-neft ixracının yüksəlməsinə müsbət təsir göstərəcəkdir.

Azad olunmuş torpaqlarımızda infrastrukturun qurulması və kənd təsərrüfatının yenidən təşkili, sənayə müəssisələrinin yenidən inşa edilməsi əlavə iş yerlərinin yaradılmasına səbəb olacaqdır. Misal üçün, Füzulinin 150 min, Ağdam rayonunun 200 min əhalisi vardır. Bununla yanaşı, apardığımız sorğulara görə, o torpaqlardan məcburi köçkün düşmüş Azərbaycan vətəndaşlarının böyük bir hissəsi bərpa və yenidən qurma işlərindən sonra öz ata-baba yurdlarına qayıtmaq istəyirlər. Onlar üçün əlavə yeni iş yerlərinin yaranması xüsusi ilə vacibdir. Qeyd edim ki, aqrar sektorda torpağın məhsuldarlığının yüksəldilməsi üçün, əkin sahələrinin salınması üçün ixtisaslı kadrlara ehtiyac vardır. Başqa tərəfdən, birbaşa kənd təsərrüfatı sahəsində işləyəcək və inşaatda işləyəcək çoxlu sayda işçi qüvvəsinə ehtiyac olacaq.

Bu sektora beynəlxalq qurumların da cəlb olunması gözlənilir. Başqa dövlətlərin praktikası onu göstərir ki, bu cür vəziyyətlərdə beynəlxalq təşkilatlar da müharibə bitdikdən sonrakı bərpa, quruculuq prosesində iştirak etməyə maraq göstərirlər. Quruculuq prosesində beynəlxalq qanunvericiliyə uyğun olaraq müəyyən vaxtlarda tenderlər keçiriləcək və sonda şirkətlər cəlb olunacaq. Biz həm xarici investorların, həm də ölkənin yerli investorlarının cəlb olunmasına görə

güzəştli vergi sisteminin tətbiq edilməsini təklif edirik. Müəyyən dövr ərzində vergi dərəcələrinin bir müddət üçün endirilməsini və o bölgələrdə fəaliyyət göstərəcək sahibkarlar üçün aşağı faizlə və ya faizsiz kreditlər əldə etmək imkanının yaradılması effektiv addımlardan biri ola bilər. Azad olunmuş torpaqlarda investisiya mühitinin yaxşılaşdırılması ölkəmiz üçün prioritetdir. Bu da daha da güzəştli şərtlər ilə xarici investorların cəlb olunmasına şərait yaradacaq.

Hələ ki bunlara ilk qoşulan Türkiyə və İtaliyanı daxil etmək olar. Azad olunmuş torpaqların kənd və şəhərlərinin mənfur ermənilər tərəfindən vandalcasına darmadağın edildiyini vurğulayan cənab prezident deyib: «Biz yenidənqurma və bərpa işləri ilə bağlı addımlar atmışıq. Bir çox müqavilələr artıq bağlanılıb və biz azad edilən torpaqlarda dost ölkələrə məxsus şirkətlər ilə çalışacağıq. Ən ilk müqavilələr Türkiyəyə məxsus şirkətlər ilə bağlanılıb və çox təbii haldır, çünki Türkiyə Azərbaycanın qardaş ölkəsidir». Cənab İlham Əliyev bildirib ki, növbəti müqavilələr İtalaya dövlətinə məxsus şirkətlər ilə bağlanacaq və elə də oldu. «Bu da çox təbiidir. Çünki İtaliya Respublikası da ölkəmizin yaxın dostudur. Dövlət arasında uzun müddətlərə arxalanan diplomatik münasibətlərin mövcud olması vaxtlarında və xüsusilə də vətən müharibəsi vaxtı biz sizin dürüst, ədalətli mövqeyinizin şahidi olduq. İtaliyanın parlament nümayəndələrinin döyüşlərin bitməsindən bir aydan da az müddət keçməmiş ölkəmizə səfəri bizim ölkələrin güclü dostluq münasibətinin olduğunun göstəricisidir» (https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var).

Turizm və rekreasiya bölgələrinin yaradılması üçün azad edilmiş bölgələrin müxtəlif yerlərində önəmli turizm potensialı vardır. Şuşa şəhərinin zəngin təbiət qoynunda yerləşməsi, tarix-mədəni turizm infrastrukturlarına yaxın olması, turizm fəaliyyətlərinin mümkün olması və magistral yola yaxın olmağı cəhətdən imkanları çox yüksəkdir. Azad edilmiş ərazilərdə turizm və rekreasiya zonası kimi Kəlbəcər rayonunda İstisu bölgəsinin böyük imkanları vardır. Uzun vaxtlar İstisu bulağından sağlamlıq üçün, kurort məqsəd üçün istifadə olunması bu ərazinin inkişaf etməsinə zəmin yaradır.

Hələ keçən əsrin 80-ci illərində Kəlbəcər rayonunun "İstisu" kurortuna bir il ərzində 50000-dən artıq xarici turist müalicə edilmək üçün gəlirdi. Yerli turizm üzrə ekspertlərin fikrincə həmin kurort zonaların yenidən bərpa edilməsindən sonra sözsüz ki, yerli və xarici turistlər Kəlbəcər bölgəsinə daha da çox axın edəcəkdir. Min bir dərdin dərmanı istisu bulaqlarından qaynayaraq çıxan mineral su tərkibinə görə ümumi dünyada bənzərsizdir. Dünyada məşhur kimyaçı alimlər isti suyu hətta Çexiyadakı tanınmış Karlo Vari mineral suyundan belə üstün sayırlar.

Zəngin mineral suları, əlverişli relyefi, gözəl təbiəti olan Kəlbəcər rayonu yenidən yerli və xarici turistlərin ilk seçimi olacaqdır. Turistlərin marşurtu yolu rayon ərazisində olan Yuxarı İstisu yatağı, Aşağı İstisu yatağı kimi böyük müalicəvi təsirə malik olan mineral su yataqları idi. Tərkibindəki kimyəvi maddələrin sayına görə çox zəngin olan bu su vasitəsi ilə mədə-bağırsaq xəstəliyinə tutulanlar, maddələr mübadiləsi pozğunluqlarını yaşayanlar və ginekoloji, sinir sistemi, uroloji xəstəliklərə yoluxanlar bir vaxtlar burada müalicə ala bilirdilər. İstisu mineral suyundan alınan duzlar müalicə məqsədi ilə xronik qəbizlik, qastrit kimi bir çox xəstəliklərin müalicə olunmasında da işlədilir.

Turizm üzrə tanınmış ekspert Rəhman Quliyevin fikirlərinə görə, üstəgəl İstisu mineral sularının satılması da təşkil olunacaq. Bu isə öz növbəsində, adamlarda bu regiona marağı daha çox artıracaqdır. Ekspertin fikirlərinə görə , Kəlbəcər ərazisində qış turizmi üçün çox əlverişli iqlim şərait vardır. Bu rayonda ilin istənilən fəslində dağların uca zirvəsində qar görmək olar.

Kəlbəcər turistlərdə maraq oyadacaq tarixi abidələr də çoxdur. Bununla yanaşı burada 5000 min müxtəlif adda bitki əmələ gəlir ki, bu bitkilərdən də 200-ü müalicəvi əhəmiyyət kəsb edir. Rayon ərazisində məskunlaşan kənd sakinləri bu bitkiləri yığaraq turistlərə sata biləcəklər. Bu isə öz növbəsində kəndlilərin sosial həyat şəraitinin daha da yüksəlməsinə şərait yaradacaqdır (https://qaynarinfo.az/az/kelbecer-yene-turizm-merkezine-cevrilecek-video/).

Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Xocavənd rayonlarında qurulması planlaşdırılan turizm və rekreasiya əraziləri Dövlət Turizm Agentliyi tərəfindən

seçilərək müəyyən olunmuşdur. Turizm və rekreasiya əraziləri ilə birgə, Şuşa şəhərində  Xarıbülbül və Qarabağ mehmanxanaları son standartlara cavab verən formada yenidən tamami ilə təmir olunmuşdur (https://azertag.az/xeber/Turizm_ve_rekreasiya_zonalarinin_yaradilmasi_uchun_Qarabagda_muhum_turizm_potensiali_movcuddur-1897937).

Azad edilmiş ərazilərdə turizm sahəsinin  inkişaf ı üçün kompleks və sistemli yanaşma prinsipi ilə mövcud olan turizm potensialı yenidən qiymətləndirilməli, ərazilərimizdəki  maddi irs nümunələri, mədəni irs nümunələri bir daha dəqiqləşdirilməlidir. Qeyd edilən istiqamətdə görüləcək işlərin sırasında yeni,əlavə turizm marşrutlarının yaradılması, Qarabağın turizm potensialı haqda məlumatı olan bələdçilərlə təmin olunması və nəhayət, turistlərin Qarabağ bölgəsinə  cəlb olunması üçün böyükmiqyaslı təbliğat işlərinin görülməsi əsas yer tutur (https://azvision.az/news/236406/-isgaldan-azad-edilmis-erazilerimizle-bagli-turizm-plani-.html).

Bu bölgələr yay, qış turizmi üçün əlverişlidir. Gələcəkdə bu ərazilərdə qış turizm növlərinin təşkil edilməsi  önəmli məsələlərdən biridir. Azad olunmuş torpaqlarda qış turizm potensialının  inkişafı üçün ilk olaraq araşdırmalar aparılmalıdır, dağ-xizək turizminə yarayacaq əlverişli yerləri, turistlərin və yerli əhalinin istirahət edə biləcəyi yerləri müəyyən etmək lazımdır. Azərbaycanda qış turizmi üçün ən əlverişli, ən yararlı yer Kəlbəcərdir. Qış turizm növlərinin yaradılmasını təbii irs nümunələrinin varlığı  labüd edir. Bununla yanaşı, Laçında rayonunda, Şuşa şəhərində, Hadrut qəsəbəsində, Tuğ kəndində, Azıx mağarası ətrafındakı ərazilər də öz növbəsində qış turizmi üçün diqqəti cəlb edir (https://oxu.az/turism/566320).

# III FƏSİL. AZAD OLUNMUŞ AZƏRBAYCAN TORPAQLARINDA DAVAMLI İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. Yeni innovasiyalı layihələrin- "Ağıllı şəhər", "Ağıllı kənd", "Yaşıl eneryi zonası" və digərlərinin işlənib hazırlanması və effektiv şəkildə reallaşdırılması

Azad olunmuş torpaqların yenidən qurulmasının başlıca yönlərindən biri də şəhərlərin və kəndlərin təzədən bərpa olunmasıdır. İşğaldan azad olunan ərazilərimizin düşmən tərəfindən bilərəkdən talan edilməsi əsaslı şəkildə işlərin aparılmasını tələb edir. Aparılan araşdırmalar nəctiəsində məlum olur ki, işğalçılıq fəaliyyəti nəticəsində doqquz mindən artıq yaşayış evinə ziyan dəymişdir. Həmin evlərin yenidən qurulması ilə əlaqəli müəyyən olunmuş başlıca işlər çoxmənzilli yaşayış evlərinin təzədən qurulması, kəndlərin yenidən bərpası ilə əlaqədar vahid olaraq yanaşmanın tətbiq olunması, kənd yerlərində optimal olaraq say tərkibinin müəyyənləşdirilməsidir.

İşğal olunmamışdan qabaq bəzi kəndlərimizdə yaşayan əhalimizin sayı həddindən artıq az olmuşdur (20-50 nəfər əhali). Yenidənqurma prosesində balaca kəndlərin qurulması səmərəli olmadığı üçün hal-hazırda daha da iri kəndlərin qurulması planlaşdırılır. Bu, mənbələrdən səmərəli və effektli istifadə olunmasına eləcə də xərclərin optimallaşdırılmasına şərait yaradacaqdır. Artıq həmin işlərin reallaşdırılması üçün şəhərlərin təzə baş planları işlənilir. Başqa kommunal infrastrukturun yenidən qurulması yolunda başlıca işlər reallaşdırılır.

Şəhərlərin və eləcə də kəndlərin yenidən bərpası ilə əlaqədar başlıca məqam isə həmin prosesdə "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrindən istifadə olunmasının planlaşdırılmasıdır. Bunların tətbiq olunması şəhərsalma həyata keçirilərkən dünyadakı ən yüksək texnika və texnologiyalarının tətbiq olunmasına və dünyanın yüksək texnoloji təşkilatlarının ölkəmizə gətirilməsinə şərait yaradacaqdır. Sonra isə bütün bunlar həmçinin başqa şəhərlər və kəndlərdə də tətbiq oluna bilər. Həmin konsepsiyaların tətbiq olunması bir sıra imkanları özü ilə bərabərində gətirəcəkdir. Həmin imkanlara dayanıqlı iqtisadi inkişafın təminatı, mövcud olan mənbələrdən effektli istifadə olunması, ətraf mühitin təmiz

saxlanılması, effektli nəqliyyat sisteminin təşkili, təhlükəsi olmayan icmaların qurulması, effektli dövlət xidmətlərinin təminatı və xidmətin səviyyəsinin artırılması aid edilə bilər.

Ölkəmizin işğaldan azad olunmuş torpaqlarında yenidənqurma prosesinin reallaşdırılmasına başqa dövlətlər və müəssisələr də olduqca çox maraq göstərirlər və bu yöndə təkliflərini dilə gətirirlər. Prezidentimizin dediyi kimi bu torpaqlarda yenidənqurma işlərində müharibə zamanı ədalətli olan və ölkəmizə qarşı dost olaraq davranan dövlətlər və həmin dövlətlərin müəssisələri iştirak edə bilərlər. Artıq yenidənqurma işlərinə bir çox dövlətlər təşkilatları ilə birlikdə cəlb olunmuşdur. Həmin dövlətlər üzrə reallaşdırılan layihələrə aşağıda göstərilənlər aid edilir:

Yenidənqurma işlərində ən çox əməkdaşlıq müharibə zamanı ölkəmizi ən çox dəstəkləyən Türkiyə müəssisələri ilə aparılır. Türkiyə müəssisələrinin olduğu layihələrə aşağıda göstərilənlər aiddir:

•Türkiyənin "Kolin İnşaat" müəssisəsi Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun salınmasında böyük rol oynayır.

•Azərbaycan İnnovasiya Agentliyi Türkiyəyə məxsus GOSB texnoparkı ilə azad olunmuş torpaqlarda müştərək texnoloji parkın salınması haqqında anlaşma memorandumu imzalayıb.

•Türkiyəyə məxsus Ziraat Bankı Şuşada filial açmaqda maraqlıdır və bununla əlaqədar artıq müraciət olunub.

•Türkiyədə olan qabaqcıl iş insanlarını özündə cəmləşdirən TÜMKİAD şirkəti azad olunmuş ərazilərə əlli milyon dollar investisiya yatırmaqda maraqlı olduğunu bildirib.

•Şuşa şəhərində 9 fənn üzrə ibtidai olaraq fəaliyyət göstərəcək məktəbin Türkiyə tərəfindən inşa olunması təklif edilib.

İtaliyanın "Ansaldo Energia" müəssisəsi ilə 2020-ci ilin dekabrında Qarabağda mövcud olan 4 yarımstansiyaya lazım olan avadanlıqların gətirilməsinə dair müqavilə imzalanıb. Həmin müqavilənin dəyəri altı milyon dollar təşkil edir və onun əsasında hamısının gücü yüz on kilovat təşkil edən stansiyalar Qubadlı,

Füzuli, Kəlbəcər və Ağdam ərazilərində yerləşir. Stansiyalar 2021-ci ildə iyunun sonunda qurularaq istifadə üçün tədqim olunacaqdır.

Böyük Britaniya da yenidənqurma işlərində ölkəmizə yardım etməkdə maraqlı olduğunu bildirmişdir. Bu ölkənin müəssisələrinin ən çox maraqlandığı sahələrə texnologiya, “Ağıllı” və “Yaşıl” şəhərlərin salınması, yenidən qurulan enerji sahəsi, minaların təmizlənməsi və mədən sahəsi aiddir. Ölkəmizdə artıq fərqli layihələrdə çıxış edən Britaniyanın “Anglo Asian Mining” fəaliyyətini azad olunmuş torpaqlarda böyütmək fikrindədir. Hal-hazırda Britaniya müəssisələri Füzulidə minaların təmizlənməsi, şəhərlərin salınması və infrastrukturun inkişafı üçün hazırlanmış layihələrə daxil edilib.

Macarıstan da azad olunmuş torpaqlarda yenidənqurma işlərində iştirak etmək niyyətindədir. Hal-hazırda bunun üçün müəyyən olunmuş layihələr təşkil olunur. Macarıstanın “Eksim Milli Bankı” torpaqlarımızın bərpa olunmasında yardım etmək istəyən Macarıstan müəssisələri üçün yüz milyon dollar həcmində kredit xətti hazırlamışdır. Bunlardan əlavə Macarıstan azad olunmuş torpaqların minalardan təmizlənməsində işlərin reallaşdırılmasına köməklik göstərmək üçün iyirmi beş min avro pul vəsaiti ayırmaq təklifi irəli sürüb (https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI7uIkPNJjtaWHaocTaeYUSK3yfc).

Yuxarıda göstərilən dövlətlərlə yanaşı müəssisələri bərpa proseslərinə sərmayə yatırmaq üçün maraqlanan dövlətlərə İsrail, İran və Yaponiya aiddir. Yenidənqurma proseslərinə başqa şirkətlərin cəlb olunması çox vacibdir. Çünki bərpa prosesinin həcmi çox böyükdür, sadəcə öz şirkətlərimizin resursları ilə yenidənqurma işlərini effektli şəkildə və az bir müddətdə reallaşdırmaq çətin bir işdir. Bunlarla birlikdə xarici müəssisələrin ölkəmizə gəlməsi və azad olunmuş torpaqların bərpasında çıxış etməsi bir çox üstünlüklər formalaşdıracaqdır. Bu müəssisələr özləri ilə təzə texnika və texnologiyalar gətirəcəkdir. Bütün bunlar isə təzə sahibkarlıq və rəqabət mühitinin formalaşması üçün kömək edəcəkdir. Azad olunan torpaqların çox böyük potensiala sahib olması həmin torpaqların yenidən bərpasında iştirak edən müəssisələrin sayının artmasına səbəb olacaqdır.

Bildiyimiz kimi, Prezident İlham Əliyev Güləbird kəndində SES-in açılışında şəxsən iştirak etmişdir. Dövlət başçısı bildirmişdir ki, Laçının azad edilməsindən heç iki ay keçməmişdir ki, artıq burada SES istifadəyə verilir: "Bu SES-in generasiya gücü 8,5 meqavatdır. Kiçik SES-lər arasında 8,5 meqavat gücü olan stansiya orta həcmli SES hesab oluna bilər. Əsas məsələ isə ondadır ki, bu SES işə başlayandan sonra artıq burada güclü generasiya gücləri yaranır və nəhayət, biz təbii sərvətimizdən - Həkəri çayından alternativ enerji əldə edəcəyik".

Güləbird kəndindəki SES işğaldan azad olunmuş ərazilərdə istifadəyə verilən birinci SES-dir və rəmzi məna daşıyır. Cənab prezident demişdir ki, Kəlbəcər və Laçında ermənilər tərəfindən işğal dövründə qeyri-qanuni istismar olunmuş, mənfur düşmən tərəfindən məhv edilmiş bütün SES-lər bərpa olunacaq. Prezident bildirib ki, ermənilər təkcə Laçında 5 SES dağıdıb (https://sesqazeti.az/news/politics/893084.html).

Cənap Prezidenti bildirib ki, yerli və xarici investorlar artıq azad edilmiş bölgələrə dəvət edilib. Azad edilən torpaqlarda xüsusi ilə də Kəlbəcər rayonunda, Laçın rayonunda külək enerjisinin böyük potensialının olduğunu bildirən cənap Prezident Cəbrayılda, Zəngilanda daha çox Günəş enerjisinin potensialını vurğulayıb.

Cənab Prezidentin müvafiq Fərmanına görə azad olunmuş torpaqlarda xüsusi dövlət əhəmiyyətli tikililərin enerji ilə təchizatının təcili və sürətlə təmin edilməsi çərçivəsində təxiredilməz tədbirlər icra edilir.Artıq Cəbrayıl da və Hadrutda yerləşən xüsusi dövlət binaları Horadiz yarımstansiyasından çəkilən elektrik xətti vasitəsiylə enerjis ilə təmin edilib.

Hal-hazırda bir milyondan çox Azərbaycan vətəndaşı öz ata-baba yurduna, obalarına qayıtmağı səbirsizliklə gözləyir. Hazırda onları yalnız bir sual daha çox düşündürür. Öz torpaqlarına qayıtdıqları zaman onların işğaldan öncəki şəhərlərinin və kəndlərinin, mülkiyyətlərindəki torpaqların gələcəkdəki taleyi necə olacaqdır. “Ağıllı kənd” layihəsi və “Ağıllı şəhər” layihəsi onlara nə kimi üstünlüklər verəcəkdir?

“Ağıllı kənd” inkişaf etmiş texnologiyanın sayəsində ucqar yerlərdə davamlı inkişa hədəflərinin icra edilməsinin necə səmərəli formada sürətləndiriləcəyini göstərən çoxtərəfli bir təşəbbüsdür. Bu modelin vasitəsilə dünyanın müxtəlif ölkələrində hökumətlər ictimai xidmətlərin keyfiyyətini, səmərəliliyini və təhlükəsizliyini yüksəltmıyi, maliyyə xərclərini maximum azaltmağı, şəffaflığı , yaxşı idarəetməni təşkilk etməyi qarşısına hədəf qoyur.

Dünya təcrübəsində “smart village” dedikdə ilk öncə kənd sakinlərinin qarşılaşdığı önəmli problemlərin operativ həll olunması və daha da vacib olan kəndlərdə yeni, müasir iqtisadi imkanların aşkar edilməsi başa düşülür. “Ağıllı kənd” texnologiyası həm də rəqəmsallaşma, kənd bölgələri sərhədlərindən daha yüksək səviyyədə böyük düşünmə, kəndlə ətraf ərazilər arasında yeni əməkdaşlıq deməkdir. Azad edilmiş torpaqlarda “Ağıllı kənd” texnologiyalarının tətbiq olunmasının nəticəsi olaraq “azalma həlqəsi”nin (circle of decline) olma ehtimalını da dayandıra bilərik. “Ağıllı kənd” və “Ağıllı şəhər” texnologiyalarının tətbiq edilməsi Qarabağ zonasını dünyanın süni intellekt ilə təbiət gözəlliyinin qarşılıqlı vəhdətindən meydana gələn turizm incisinə həmçinin ölkəmizi innovasiya-startap fabrikinə dəyişə bilər.

Nəzərə alaq ki, hazırki iqtisadi sistem 30 il əvvəlki sistem ilə eyni deyil. Belə ki, 1992-ci ildəki iqtisadi sistem bir gündə 100 geqabayt informasiya formalaşdırıra bilirdisə, hal-hazırda bir saniyə ərzində 45000 Gb informasiya yaradır. Gələcəkdə isə texnologiyanın sürətli inkişafı nəticəsi olaraq saniyədə 150700 geqabayt informasiyanın formalaşdırılacağı ehtimal edilir. Başqa tərəfdən Birləşmiş Millətlər Təşkilatının 2016-cı ildə etdiyi araşdırmalar nəticələrinə görə, dünyada məskunlaşan əhalinin 53 faizi müxtəlif şəhərlərdə məskunlaşıb. 2030-cu ilə qədər insanların 60 faizi, 2050-ci ilə qədər isə 70 faizinin müasir, böyük şəhərlərdə məskunlaşacağı gözlənilir. Bununla yanaşı qəsəbə və kəndlər də IV Sənaye İnqilabının təsiri ilə, 5G texnologiyasının. təsiri ilə nəinki ənənəvi formasını dəyişir, hətda idarəedilmə, davranış, yaşayış tərzi və s. cəhətlərdən də ciddi şəkildə dəyişikliklərə məruz qalır.

Cənab Prezidentin uzaqgörən təşəbbüsünün nəticəsi olaraq Azərbaycan Dördüncü Sənaye İnqilabı üzrə regionda mərkəzə çevrilmək üzrədir. Ölkə başçısının 6 yanvar 2021-ci il tarixli Fərmanına əsasən “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsi yaradılmışdır. Ölkəmizdə “Ağıllı şəhər” konsepsiyasının tətbiq edilməsi ilə bağlı araşdırma edilməsi və pilot layihə gerçəkləşdirilməsi imkanlarının müəyyən olunması cənab Prezidentin 27 fevral 2020-ci il tarixli Sərəncamına əsasən təsdiq olunmuş “Açıq hökumətin təşviq edilməsinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda yer almışdır.

2021-ci ilin aprel ayının 19-da isə Prezident “Ağıllı şəhər” (Smart City) konsepsiyasının və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazır edilməsi barədə Sərəncam imzalamışdır. Onu da vurğulamaq lazımdır ki, ölkəmizin artıq “Ağıllı kənd” konsepsiyası ilə bağlı təcrübəsi də vardır. Yəni ki, 2018-ci ilin noyabrında Qaxa səfər edən vaxt cənab Prezident birinci dəfə idi ki, Azərbaycanda yaradılması planlaşdırılan yeni “Ağıllı Kənd” layihəsini təqdim edilib.Hal-hazırda azad edilmiş torpaqlar da “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyası ilə yenidən qurulur.

**“Ağıllı şəhər” layihəsi niyə önəmlidir?**

Ümumiyyətlə, "Ağıllı şəhər” mövzusu son dövrlərdə texnoloji şirkətlər və şəhər planlarını işləyib hazırlayanların arasında çox müzakirə olunan mövzudur. Hesab olunur ki, şəhərlərimizin daha ağıllı formata gəlməsinin nəticəsi olaraq gündəlik həyatımız indikindən daha da asan ola bilər.

Sakinlərin rahat yaşaması üçün hesablanan ekoloji, iqtisadi, sosial nöqteyi-nəzərdən səmərəli və dayanıqlı hesab edilən “Ağıllı kənd” və “Ağıllı şəhər” modelini reallaşdırmaq üçün innovativ informasiyalardan və kommunikasiya texnologiyalarından çox istifadə olunur. Misal üçün, əhalinin zəruri problemlərinin həll olunması üçün elektron xidmətlər, yaşayış yerlərində kommunal sahələr üzrə tədbirlərin vaxtı, mənzillərin icarəyə götürülməsi üçün platforma, logistik xidmətlərin intensiv intellektuallaşması, elektron səyahət kartı və başqa elementlər “Ağıllı şəhər”in başlıca elementləridir.

Hal-hazırda dünyada bütün dövlətlərin hökumətləri qarşısında dayanan böyük və bir problem vardır. Şəhər yaşayış və qeyri yaşayış yerlərini səmərəli enerji vasitəsi ilə necə təmin etmək olar ki, ətraf mühitə zərər verilməsin. Ona görə ki, dünyada ekoloji vəziyyət get-gedə daha da pisləşir və bütün əhalinin həyat keyfiyyətinə, həyat tərzinə birbaşa təsir göstərir. Belə olduğu halda yaşıl enerji mənbələrinin nə dərəcədə səmərəliliyinin çoxaldığını və şərti kilovat-saatın qiymətinin dayanmadan azaldığını vurğulamaq yerinə düşər. Bir sıra dünya dövlətləri günəş və küləyi potensial enerji mənbəyi kimi görürlər. Cənab Prezidentin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 3 may 2021-ci ildə verdiyi Sərəncamının icra olunması qeyd olunan sahədə görülən müvafiq işlərə geniş şərait yaradır.

Elm, texnologiya sürətlə inkişaf edir və nəticə olaraq dünya daha çox dəyişikliklər ilə qarşılaşır. "Ağıllı şəhər" konsepsiyası da bu dəyişikliyin ən əsas hissələrini özündə birləşdirir. "Ağıllı şəhərlər" elm və son texnologiyanın ən yüksək səviyyədə inkişafda olduğu, cəmiyyətin, insanların həyat formatının fərqli istiqamət aldığı şəhərlər hesab edilir.İnkişaf etmiş İT şirkətlərinin proqnozlarına görə, 2025-ci ilə qədər dünyada ən azı 90-100 "Ağıllı şəhər" olacaqdır. Bu şəhərlərin də 50-dən artığı Asiya ölkələrində yaradılması gözlənilir.

"Ağıllı şəhər" demək olar ki, təhlükəsiz şəhərdir. Bu, birbaşa ona görədir ki, burada son texnologiyalardan çox ciddi formada istifadə edilir. Bu, texnoloji yönümlü olaraq cinayətlərin daha da tez bir vaxtda aşkar edilməsinə şərait yaradır və nəticə olaraq şəhər təhlükəsiz şəhərə çevirir. Dünyada ətraf mühitin qorunması nöqteyi-nəzərdən alternativ enerji mənbələrinin yaratdığı imkanlardan "Ağıllı şəhər"lərdə xüsusi ilə istifadə edilir. O cümlədən "Ağıllı şəhər" nəqliyyat şəbəkəsinin inkişafına xüsusi imkan verir.

"Ağıllı kənd","Ağıllı şəhər" konsepsiyası üzrə infrastruktura fiziki, informasiya və kommunikasiya təşkilatları, xidmət infrastrukturu aiddir. Burada fiziki infrastrukturun elementləriə dəmir yolları, binalar, yollar, müxtəlif tikililər,

elektrik xətləri, su sistemi və s. aiddir. İnformasiya və kommunikasiya təşkilatları "Ağıllı şəhər" və "Ağıllı kənd" layihəsinin əsas komponenti olaraq bütün başqa komponentləri özündə əhatə edir və "sinir mərkəzi" rolunda çıxış edir. Xidmət infrastrukturu isə informasiya və kommunikasiya təşkilatlarının elementləri əsasında fiziki infrastrukturun idarə edilməsi funksiyasını icra edir. Konsepsiyanın başqa tərkib hissəsinə sakinlərin hamısı üçün sağlam həyat təmin edən və zəruri komponentləri keyfiyyətli,şəffaf səhiyyə sahəsi, təhlükəsizlik təminatı və təhsil olan "ağıllı" həyat aiddir.

Müasir həyatda ayrılmaz atributlarımızdan olan nəqliyyat sisteminin intellektual idarə olunması, "ağıllı" parkinq yerləri, ictimai nəqliyyatın idarə olunması, yol hərəkəti qaydalarının hərzaman pozulmasına videonəzarət olunması, "ağıllı" işıqlandırma sistemləri, "ağıllı" sayğac aparatları, sudan istifadənin "ağıllı" idarə olunması, "ağıllı" şəbəkə və başqa bu tip məsələlər konsepsiyanın vacib, mühüm, ayrılmaz komponentlərindən hesab olunur.

### 3.2. Yeni investisiya mənbələrinin cəlb edilməsinin stimullaşdırılması

Milli iqtisadiyyatın ən önəmli istiqamətlərindən biri, onun innovativ komponentlərinin sayəsində dayanıqlı iqtisadi inkişafa keçididir. Hal-hazırda dövlətin önəmli problemlərindən biri rəqabətyönümlü texnoloji və innovativ potensialının zəif inkişaf etməsidir. Milli iqtisadiyyatın innovativ inkişafının ən əsas problemlərinin həll edilməsi birbaşa xarici investisiyaların cəlb olunmasından asılıdır. Ölkədə birbaşa xarici investisiyaların cəlb olunması dövlətin iqtisadi siyasətinin başlıca vəzifələrindən biridir. Ona görə ki, inkişaf etmiş texnologiyaların, qabaqcılk avadanlıqların və nou-haunun xaricdən daxilə gətirilməsini təşkil etmək, bu ən əsasda texnoloji strukturu son standartlara uyğun yeniləmək, sənayenin istehsalat sürətini artırmaq və canlandırmaq nöqteyi-nəzərdən bu kimi investisiyalar çox əhəmiyyətli rola malikdir.

Milli iqtisadiyyatda birbaşa xarici investisiyaların əsas üstünlükləri ondan ibarətdir ki, təkcə texnoloji yeniliklərin tətbiq olunmasına deyil, həmçinin innovativ idarəolunma üçün yeni bilik və son model texnologiyaların tətbiq

olunması ilə müşayiət edilən dayanıqlı iqtisadi inkişafa şərait yaradır. Birbaşa xarici investisiyanın intensiv cəlb olunması olmadan dövlətin iqtisadi inkişafını, yüksək artım templərini özündə əhatə edə bilən bir investisiya potensialı yaratmaq çox problemli məsələdir. Hal-hazırda əlverişli investisiya mühitinin formalaşması, birbaşa xarici investisiyaların cəlb olunması problemlərinin həll edilməsi, o cümlədən ölkənin inkişafının fərqli iqtisadi, infrastruktur, sosial və başqa elementləri ilə bağlıdır.

Ölkədə birbaşa xarici investisiyanın cəlb olunması zərurəti aşağıda göstərilən hallarda yaranır:

- daxili investisiya mənbələrinin çatışmaması;
- ölkə investorlarının investisiya fəallığının aşağı səviyyədə olması;
- rəqabətli iqtisadiyyatın yaratması və qlobal bazarlara çıxmaq istəyi.

Ölkədə birbaşa xarici investisiyaların cəlb olunması yolları aşağıda verilənlərdir:

❖ digər ölkənin ərazisində tamamilə başqa bir xarici investora məxsus şirkətin yaradılması;

❖ xaricdə fəaliyyətdə olan firmaların alınması;

❖ müəyyən güzəştlər qarşılığında xarici kapitalın cəlb olunması;

❖ ölkənin müxtəlif bölgələrinə xarici investorların fəal, operativ cəlb olunmasına istiqamətlənmiş sərbəst iqtisadi zonaların təşkil olunması;

❖ müştərək müəssisələrin yaradılması.

İndiki dövrdə İEÖ birbaşa xarici investisiyaların ən əsas ixrac və idxal edənidir. Ümumiyyətlə, istənilən dövlət iqtisadi inkişaf səviyyəsindən qeyri-asılı olaraq, birbaşa xarici investisiyaların cəlb olunmasında, daha doğrusu, belə investisiya axınlarından dolayısı ilə və ya birbaşa müsbət təsirlərin əldə olunmasında maraqlıdır. Birbaşa xarici investisiya nəticəsində əldə olunmuş məhsul istehsal qabiliyyətinin inkişaf etdirilməsi və texnologiyanın ötürülməsini stimullaşdırmaq nöqteyi-nəzərdən ev sahibi iqtisadiyyatına çox müsbət təsir göstərir. Bir çox iqtisadçılar ev sahibi ölkələrə birbaşa xarici investisiyaları daha müsbət amil kimi qeyd edirlər. Sözsüz ki, bunlar daxili iqtisadiyyatda əlavə

investisiya mənbəyinin formalaşmasına şərait yaradır, əmək məhsuldarlığının və məşğulluğun fasiləsiz artımına öz töhfəsin verir. Dəyişməz bir qayda olaraq, birbaşa xarici investisiyalar ölkədə sənaye kapitalını əsaslı şəkildə keyfiyyətcə dəyişdirə biləcək və əmək bölgüsünə inteqrasiya oluna biləcək yeni biliklər, son texnologiyalar, iş proseslərinin müasir təşkili metodları ilə əhatə edilir.

Cənab Prezident 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" verdiyi Sərəncamına görə, həmin torpaqlarda istehsal fəaliyyəti ilə dərindən məşğul olan sahibkarlar üçün daha da rahatçılıq olsun deyə, xammal və materialların idxal olunması ilə bağlı gömrük güzəştlərinin, vergi güzəştlərinin müəyyən olunması haqda DVX-ə təkliflərin hazırlanması tapşırılıb.

Hal-hazırda DVX tərəfindən həmin bölgələrin iqtisadi diaqnostikası incələnir və bu təhlillər əsasında yekun təkliflər hazırlanır. Bu sənədə görə, azad olunmuş torpaqların inkişaf etməsi üçün vergi təşviqlərinin tətbiq edilməsi, yeni istehsalalat sahələrinin yaradılmasına görə kapital qoyuluşlarına, mənfəət vergisinə güzəştlərin olması, turizmin inkişaf etməsi üçün vergi təşviqlərinin təmin edilməsi nəzərdə tutulubdur.

Verilən təkliflərə görə, Qarabağda, Şərqi Zəngəzurda kənd təsərrüfatı yönümlü fəaliyyəti ilə məşğul olacaq bütün mülkiyyətçilərin torpaq vergisi istisna edilməklə, vergilərdən tamamı ilə azad olunması nəzərdə tutulur. Bununla yanaşı, Qarabağ regionu böyük sənaye potensialına məxsusdur. Sənaye zonalarında investisiyaların cəlbedici olmağını artırmaq üçün hal-hazırda Ələt Azad İqtisadi Zonasında, Sənaye Texnologiyalar Parklarınd vergi siyasəti və gömrük siyasəti təşviq olunur, azad olunmuş torpaqlarda sənaye müəssisələri üçün də qeyd olunan güzəştlər şamil olunacaqdı. Cəbrayıl rayonunda təzə fəaliyyətə başlamış sənaye parkı "Araz Vadisi İqtisadi Zonası" da ilk xarici investorlar qeydiyyata alınıblar, Rusiyanın "KamAZ" Açıq Səhmdar Cəmiyyəti şirkəti tərəfindən bu yerdə birinci investisiya layihəsinin icra edilməsi yaxın günlərdə olacaqdır. Həmin sərmayəçilərə aid ediləcək vergi güzəştləri nəzərdə tutulmuşdur.

Hal-hazırda 50-dən artıq xarici şirkət azad olunmuş torpaqların bərpa olunması üzrə layihələrdə yaxından iştirak etmək məqsədi ilə hökumətə müraciət ünvanlayıb. Onların arasında Türkiyə Cümhuriyyəti, RFR, Pakistan, Qazaxıstan, Macarıstan, İsrail , Çin, İtaliya, və Cənubi Koreya şirkətləri ən əsas yer tutur. Onu da qeyd edək ki, bu şirkətlər üçün də vergi güzəştlərinin tətbiq olunması planlaşdırılır. Bununla yanaşı, yerli sahibkarların da azad olunmuş bölgələrdə biznes qurmaq istəyi çox dərəcədə böyükdür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə indiyə kimi 980 sahibkar tərəfindən müraciət ünvanlanmış və qeyd olunmuşdur ki, Qarabağ iqtisadi rayonundas, Şərqi Zəngəzur iqtisadi rayonunda aktiv işlərdə iştirak etmək istəyini bildiriblər. Azad edilmiş torpaqlarda fəaliyyətdə olacaq sahibkarlıq subyektlərinə, həmçinin kiçik və orta sahibkarların mənfəət, gəlir vergisi üzrə güzəştlərin tətbiq edilməsi nəzərdə tutulub.

Yerli sahibkarlıq subyektlərinin bir çoxunun investisiya təşviqi sənədi ilə təmin olunmasını nəzərə alsaq, bu subyektlər üçün vergi məcəlləsi ilə müəyyən olunmuş güzəştlərdən yararlanması çox rahat olacaqdır. Ona görə ki, investisiya təşviqi sənədi əldə edən istər fiziki şəxslər, istərsə də hüququi şəxslər 7 il ərzində bir çox vergilərdən və rüsumlardan azaddırlar. Hüquqi və fiziki şəxslər mənfəətinin, gəlirinin yarısına görə mənfəət və ya gəlir vergisini ödəməkdən, hər hansı bir investisiya layihəsi çərçivəsində bu investisiya hesabına alınmış əmlaklarına görə əmlak vergisindən, onun istifadəsində, mülkiyyətində olan torpaqlara görə torpaq vergisindən, müvafiq təsdiqedici sənəd təqdim etməklə texnikanın, bütün texnoloji avadanlıqların, qurğuların idxal edilməsinə görə cdən və müxtəlif gömrük rüsumlarından azaddırlar.

1 yanavr 2022-ci il tarixdən 3 il ərzində kənd təsərrüfatı təyinatlı məhsullarının topdan satışı , pərakəndə satışı vaxtı əlavə dəyər vergisinin ticarət əlavəsi üzərindəndən hesablanması, bununla yanaşı kənd təsərrüfatı texnikalarının, qurğularının operativ lizinqə verilməsi, kənd təsərrüfatı təyinatlı məhsulların istehsal edilməsi ilə bağlı bütün aqrotexniki xidmətlər də əlavə dəyər vergisindən azad olunubdur. Bu səbəbdən də, bu qrupa daxil edilən bütün sahibkarların

işğaldan azad olunmuş bölgələrdə ən azı 5 növ vergidən azad olmasa indidən aşkardır.

Kənd Təsərrüfatı Nazirliyinin nəznində Aqrar Tədqiqatlar Mərkəzinin rəhbəri Firdovsi Fikrətzadənin fikirlərinə görə , azad edilmiş torpaqlara iqtisadi stimulların verilməsi birinci növbədə indiki kənd təsərrüfatında əhəmiyyətli dərəcədə dönüş edəcəkdir. Ağdam rayonunun, Füzuli rayonununin işğal edilməyən hissələri də nəzərə alınmaqla, işğaldan qurtulmuş bölgələrdə təxmini olaraq 232800 ha. ərazidə əkin sahələri vardır. O cümlədən 430000 baş iribuynuzlu, 16 mln baş xırdabuynuzlu heyvanlardan qurulmuş fermaların yenidən qurulması üçün böyük potensial vardı. Qarabağ zonasının heyvandarlıq sahəsi üzrə tarixi potensialı və təbii-relyef göstəriciləri nəzərə alsaq, gələcəkdə də heyvandarlıq yönümlü kənd təsərrüfatı üstünlük təşkil edəcəkdir.

Bu regionda ət və süd məhsulları istehsalı ilə məşğul olan müəssisələrin, üzümçülük , baramaçılıq, tütünçülük, arıçılıq və s. sahələrinin bərpa olunması və genişləndirilməsi gerçəkləşəcəkdir. Bundan başqa, bu bölgələrdə yeni aqrar layihələr, müasir , intensiv meyvəçilik sahəsinin inkişaf edilməsi da nəzərə alınıb. Verilən versiyalara görə, azad edilmiş torpaqlarda kənd təsərrüfatı sahələrinin inkişaf etməsini stimullaşdıracaq dəstək tədbirlərinin nəticəsi olaraq yaxın vaxtlarda kənd təsərrüfatında faktiki real artımın 9 faizi, bununla yanaşı ölkə üzrə ümumi buğda istehsalının 10-13 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonlarında əldə olunacaqdır. Birinci mərhələdə ümumilikdə bu torpaqlarda 1 mlrd. manatlıq əkinçilik məhsulları istehsal etmək olacaq ki, bunların da önəmli hissəsinin buğda və taxıl istehsalı olması gözlənilir (http://ulfet-az.com/Home/SinglePost?PostId=871).

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ümumiyyətlə azad edilmiş ərazilərdə dayanıqlı inkişafın təmin olunması anlayışına birtərəfli baxmaq olmaz. Bir regionda iqtisadiyyatın digər bölgələrdən və ya dövlətdən tam asılı olmadan öz ayaqları üstündə duraraq özünü təmin edə biləsi üçün bütün elementlərindən maksimum yararlanmaq lazımdır.

Qarabağ 30 il işğal müddətində tam deformasiya olunmuş və yaşayış məskəni kimi heç bir əlaməti qalmamışdır.Düzdür, 2020-ci il torpaqlarımızın işğaldan azad olması bitdiyi dövrdən dayanmada bu ərazilərdə bərpa quruculuq işləri davam etdiril ama uzun müddət məhv edilmiş bir ərazinin bərpası çox da asan olmayacaqdır.

Cənab prezidentin işğaldan azad edilmiş ərazilərə olan diqqəti sayəsində 2021-ci ildə bu ərazilərə 2 milyard manatdan çox vəsait yatırılmışdır və bir neçə gələcək illər ərzində də ayrılacaqdır. Lakin, bu xərclərlə yanaşı get-gedə bu ərazilərin də öz iqtisadiyyatı qurulmalıdır. Qarabağ regionu təbii sərvətlərinə görə, turizim-rekresiya ehtiyatlarına görə, kənd təsərrüfatına görə və s. göstəricilərinə görə çox zəngin regiondur. Ancaq hal-hazırda dünyada gedən proseslərlə bağlı olaraq ilk öncə “kənd təsərrüfatı” və “qida sənayesi” mövzusuna toxunaq.

Dünyada baş verən kəskin iqlim dəyişməsi, müharibələr və ən əsas hal-hazırki Rusiya-Ukrayna müharibəsi bir daha onu göstərdi ki, bir dövlət olaraq qida sənayesinə çox diqqət ayırmalıyıq. Azərbaycan müsbət saldosu olan bir dövlətdir, taxıl ehtiyatının 60 %-ni daxil istehsal sayəsində qarşılayır, ancaq onu da bilirik ki, qida rasionunda əsas yer alan ərzaqlıq buğdanın 70 %-ə yaxını xaricdən, əsasən də Rusiya, Qazaxıstan, Ukraynadan idxal edilir. Ukrayna-Rusiya müharibəsinə görə hal-hazırda əsas idxal Qazaxıstan Respublikasındandır. Bu kim hallar baş verdikdə, ərzaq böhranının qarşısını almaq, ölkəmizin xaricdən asılılığını azaltmaq məqsədilə əkin sahələrinin becərilməsi, yaylaqlardan istifadə etməklə maldarlığın inkişafı və nəticə olaraq ərzaq ehtiyatının artırılması gündəmdə olmalıdır. 2020-cildən azad edilmiş ərazilərdə mina və partlayıcı vasitələrdən təmizlənən əkinə yararlı torpaqlarda taxıl sahələri salınmaqdadır.Azərbaycanın indiki əsas taxıl

istehsal edən aran rayonlarına nisbətdə azad edilmiş torpaqlar suvarma, torpaq keyfiyyəti cəhətdən daha üstündür.

Ərazilər təmizləndikdə qış otlaqları üçün Ağdam, Füzuli, Cəbrayıl o cümlədən yay otlaqları üçün Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan ərazilərinin ət,süd, və digər qida məsulları istehsalı üçün çox böyük rolu olacaqdır

Bu yolda ilk addımlar atılmaqdadır. Bu yaxınlarda cənab prezident İlham Əliyev İsrailin Kənt Təsərrüfatı Nazirini qəbul etməs çox önəmli bir addımdır. Nazir Azərbaycanda yeni kənd təsərrüfatı modelinin qurulması barədə açıqlama vermişdir. Ölkəmizin apardığı siyasət nəticəsində, İsrail kimi inkişaf etmiş bir ölkənin kənd təsərrüfatı modelindən yararlanmaq çox böyük uğurdur.

İndi isə ən önəmli mövzulardan biri olan investorların cəlb edilməsinə toxunaq. İstər yerli, istərsə də xarici investorların cəlb edilnməsi üçün müxtəlif güzəştlər olmalı, əlverişli şərait yaradılmalıdır. Bunlara misal olaraq Ağdam sənaye parkını göstərmək olar. Sənaye parklarında vergilərə edilən güzəştlər(gəlir və mənfəət vergisinin 50 %-indən 7 il ərzində azadolma, 7 il müddətinə torpaq vergisindən və burada istifadə ediləcək əmlak vergisindən azadolma və s.) investor cəlb etmədə mühüm addımdır. İnkişaf etmiş ölkələrdə əsasən, vergilirin yüksək olması məlumumuzdur, Ona görə də, vergi azadolmaları,güzəştləri və gömrük rüsumlarının azaldılması bu ölkələrin şirkətlərini aza edilmiş ərazilərə cəlb etmək üçün mühümdür.

Təbii resurslar haqda mövzumuzda ətraflı müzakirə aparılmışdır. Nəticə olaraq onu demək olar ki, bu ehtiyatların istismara verilməsi həm ölkə üçün böyük gəlir mənbəyidir. O cümlədən azad edilmiş ərazilərdə tikinti sənayesinin inkişafına təkan verəcək faydalı qazıntıların çıxarılması üçün işçilərin cəlb olunması nəticəsində neçə-neçə insanın işlə təmin edilir. Meşə sənayesini inkişaf etdirmək üçün böyük potensial vardır.

İş yerlərinin və təhsilin inkişafı, o cümlədən paytaxda və digər böyük şəhərlərdə insan sıxlığını azaltmaq üçün bu ərazilərdə universitetlərin açılması perspektivlidir.

Dünyada tükənməyən gəlir növü kimi ilk sıralarda olan turizim sənayesinin hər bir sektoru üçün azad olunmuş ərazilərdə böyük perspektivlər vardır. Başlanğıc olaraq dövlət dəstəyi sonra isa dövlət və özəl sektorun birlikdə dəstəyi ilə Qarabağ regionunda yay,qış, tarixi, müalicəvi və turizmin digər növlərini inkişaf elətdirmək olar.

Bir neçə gün öncə Milli Məclis Ələt Azad İqtisadi Zonasında olan şirkətləri bütün vergi və gömrük rüsumundan azad edilməsi haqda qanun qəbul edib. Bu, çox uğurlu bir addım kimi qiymətləndirilir, çünki bu kimi şərtlərin yumşaldılması, güzəştlər və s. investor axınına səbəb olacaqdır. Gələcəkdə azad edilmiş ərazilərdə də belə bir prosesin olması burada inkişafı sürətləndirəcəkdir.

Həmçinin, Qarabağ regionun yenidən qurulmasında, bərpasında dünya praktikasından istifadə edilməlidir. Buna nümunə olaraq belə hadisələrin son baş verdiyi bəzi ölkələr üzrə xüsusi nümayəndələr təyin edilməli və orada müharibədən sonra başlayan dirçəliş prosesin araşırmalıdır. Düzdür, hər bir ölkə üzrə tamamilə spesifikdir ancaq bu araşdırmaların yekunu olaraq ortaya çıxan araşdırmaların nəticəsi azad edilmiş torpaqların inkişafın sürətini gücləndirə bilər. Bununla yanaşı, Dünya Bankının post-konflikt ərazilərdə bərpa-quruculuq sahəsində apardığı araşdırmalar,tədqiqatlar xüsusilə faydalı ola bilər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


### Azərbaycan dilində

1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.
2. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar.Bakı, "Qafqaz" nəşriyyat evi, 2010. – 270 s.
3. "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012-ci il.
4. Bilalov B.Ə., Gülalıyev Ç.G., (2015), Turizmin əsasları. Bakı, "QHT Nəşriyyatı" – 492 səh.

### Rus dilində

1. Алиева Н.Р., (2010), Развитие туризма в регионах Азербайджана в обеспечении занятости населения, Баку, "Авропа" – 196 стр.;
2. Аллахвердиева Л.А., (2018), Формирование конкурентоспособного туризма в Азербайджане, Баку, НАНА Институт Экономики – 155 стр.;

### *İnternet resursları*

1. https://president.az/az/articles/view/50474 (Noyabr, 2021)
2. https://yeniazerbaycan.com/Iqtisadiyyat_e60014_az.html (Sentyabr, 2021)
3. https://xalqqazeti.com/az/news/78552 (Oktyabr, 2021)
4. https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc (Noyabr, 2022)
5. https://apa.az/az/dagliq-qarabag/Isgaldan-azad-olunan-razilrin-brpasi-il-bagli-konsepsiyanin-sas-istiqamtlri-aciqlanib-620982 (Oktyabr, 2021)
6. https://www.baki-xeber.com/siyaset/116274.html (Sentyabr, 2021)

7. https://musavat.com/news/hokumet-azad-olunan-erazilere-investorcelbinin-de-agilli-yolunu-tapa-bilecekmi_852217.html (Dekabr, 2021)

8. https://www.mdu.edu.az/az/1329-b-y-k-tarikhi-z-f-r-v-az-rbaydzan-n-dayan-zhl-inki-af-n-n-t-min-edilm-sind-investisiya-dz-lbedidziliyinin-prioritet-istizham-tl-ri.html (Noyabr, 2021)

9. https://azertag.az/xeber/Isgaldan_azad_edilen_erazilerde_elvan_metal_ehtiyatlarinin_potensiali_dag_meden_senayesinin_inkisafinda_boyuk_rol_oynayacaq-1723153 (Noyabr, 2021)

10. http://interfax.az/view/817546/az (Oktyabr, 2021)

11. https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var (Oktyabr, 2021)

12. https://azvision.az/news/236406/-isgaldan-azad-edilmis-erazilerimizle-bagli-turizm-plani-.html (Dekabr, 2021)

13. https://oxu.az/turism/566320 (Aprel, 2022)

14. https://azertag.az/xeber/Turizm_ve_rekreasiya_zonalarinin_yaradilmasi_uchun_Qarabagda_muhum_turizm_potensiali_movcuddur-1897937 (Oktyabr, 2021)

15. https://qaynarinfo.az/az/kelbecer-yene-turizm-merkezine-cevrilecek-video/ (Sentyabr, 2021)

16. https://president.az/articles/50474 (Mart, 2022)

17. https://notemlaw.com/news-az/243-azrbaycan-2030-sosal-qtsad-nkafa-dar-mll-prortetlrn-tsdq-edlms-haqqinda-srncam-mzalanib.html (Aprel, 2022)

18. https://report.az/ask/qarabagda-ilk-agilli-kend-nece-olacaq/ (Yanvar, 2022)

19. http://atributinfo.az/sosial/19148-qaraban-turizm-potensial-bel-tandlr.html (Oktyabr, 2021)

20. https://azadses.az/cemiyyet/8798-zngilann-gzmli-grmli-yerlri-haqqnda-videoarx-hazrlanb.html (Fevral, 2022)

21. https://azerforum.com/az/pambiqciliq-uzumculuk-taxilciliq-ve-turizm (Noyabr, 2021)

22. https://azvision.az/news/240639/fuzuli-tezlikle-inkisaf-etmis-rayonlardan-birine-cevrilecek-.html (Fevral, 2022)

23. https://xalqqazeti.com/mobile/az/news/70145 (Oktyabr, 2021)

24. http://eco.gov.az/frqcontent/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf (Yanvar, 2022)

25. https://bakuresearchinstitute.org/en/building-smart-cities-and-villages-in-azerbaijan-challenges-and-opportunities/ (Mart, 2022)

26. https://www.e-zigurat.com/blog/en/smart-city-barcelona-experience/ (Fevral, 2022)

27. https://marja.az/73384/yeni-iqtisadi-rayonlar-yaradildi-ferman (Sentyabr, 2021)

28. http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf (Aprel, 2022)

29. https://sesqazeti.az/news/politics/893084.html (Yanvar, 2022)

30. https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc (Dekabr, 2021)

31. https://nuhcixan.az/news/cemiyyet/59481-agilli-kend-ve-agilli-seher-layihelerinin-olke-iqtisadiyyatina-tesiri (Mart, 2022)

32. http://www.anl.az/down/meqale/sdu_elm_xeber/2019/04/736957(meqale).pdf (Yanvar, 2022)

33. http://ulfet-az.com/Home/SinglePost?PostId=871 (Yanvar, 2022)

# Cədvəllərin siyahısı

**Cədvəl 1:** İşğaldan azad olunmuş rayonların işğal vaxtı olan ststistik göstəriciləri........................................................................................................................13
**Cədvəl 2:** İşğaldan azad olunmuş rayonlar üzrə ayrı-ayrılıqda faydalı qazıntılar........................................................................................................................48